www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29-31 iyul 2017-ci il Şənbə № 158 (6772) Qiyməti 60 qəpik

**Xəbər**

## Biləsuvarda dəhşət: 9 yaşlı oğlan 7 yaşlı qızı güllələdi

yazısı səh.13-də

**Gündəm**

### Bazarlarda mövsümə xas olmayan bahalaşma



Qiymətlər niyə qalxır? Paytaxtın satış nöqtələrindən əməkdaşımızın qeydləri

yazısı səh.3-də

### İŞİD-in tərkibində döyüşən azərbaycanlılar geri qayıtmaya bilər - təhlükəsizlik eksperti

yazısı səh.12-də

### Azərbaycan hərbi parkını gücləndirir - Qarabağ prioriteti

yazısı səh.11-də

### Ölkəmizdən Həccə avtomobillə getməyə icazə verilməyəcək

yazısı səh.2-də

### Azərbaycanlı politoloq "Stratfor"un tezisini alt-üst etdi

yazısı səh.9-da

### Azərbaycanlıların Rusiyada yüksək mövqe tutmamasının səbəbləri - din amili, yoxsa mentalitet?

yazısı səh.12-də

### Yayın kondisioner dərdi: həm sərinlədir, həm də...

yazısı səh.13-də

### 6 yaşlı Ramilənin ölümü: işgəncə, yoxsa... - məhkəmə yekunlaşır

yazısı səh.10-da

### Dənizdə boğulanlarla bağlı statistika: iki qardaş, azyaşlılar, model, polis...

yazısı səh.13-də

### İki "Q", Qurban və Qriqorçuk: "Qarabağ" və "Qəbələ"nin qələbə şansı varmı?

yazısı səh.15-də

## Yəhudi nazirin müəmmalı İrəvan səfərinin pərdəarxası

# ERMƏNİLƏRİN İSRAİL ARZUSU, İRAN XOFU VƏ BAKININ BASQISI

Düşmən ölkəni yəhudi dövləti ilə yaxın ilişkilər qurmağa qoymayan üç səbəb; Sərkisyan Tehrana niyə can atır? ABŞ-ın "beyin mərkəzi"ndən erməniləri üzən proqnoz gəldi...



yazısı səh.8-də

## 6-cı "kalon"da dəhşətli işgəncələr haqda iddialar - məhkum yaxınları danışır

"Döyürlər, asırlar, deyirlər ki, bizdən müalicə, yemək istəmə, şikayət yazma. Öl, qal burada"; Penitensiar Xidmət məsələni araşdıracaqlarını deyir...

yazısı səh.5-də



### 60 yaşlı Zəlimxan Məmmədli ilə yubiley söhbəti

yazısı səh.7-də



### Elçibəy Saakaşviliyə nümunə göstərildi: "Ölkədən getməsəydi..."

yazısı səh.6-da



Vüqar Bayramov

### Tanınmış iqtisadçıdan dollar-manat kursu ilə bağlı xəbərdarlıq

yazısı səh.4-də



## Azərbaycandan Həccə avtomobillə getməyə icazə verilməyəcək

**Avqustun son 10 günlüyündə Həcc ziyarəti başlanacaq. Bunu "Yeni Müsavat"a açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin (QİM) mətbuat xidmətinin rəhbəri Rəhimə Dadaşova deyib.**

R.Dadaşova kvotaların olduğunu və qiymətlərdə heç bir dəyişiklik olmadığını bildirdi: "Avqustun son on günlüyündə Həcc ziyarətinə gedənlər yola düşəcək. Ziyarətə AZAL-ın xətti ilə yalnız təyyarə ilə gediləcək".

Həcc ziyarətinə şəxsi avtomobili ilə getmək istəyənlər olsa da, buna icazə verilmir. Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, "Məşədi Dadaş" məscidinin imam-camaatı Hacı Şahin Həsənli modern.az-a açıqlamasında bu il avtobusla da gedilməyəcəyini bildirib: "Builki Həcc ziyarətinə yollanmaq istəyən zəvvarların sayında azalma yoxdur. Əksinə, Həcc ziyarətinə yollanmaq üçün çoxlu sayda insan yazılmışdı. Azərbaycandan Həcc ziyarətinə getmək üçün ayrılmış 600 nəfərlik kvota tam dolub. Ötən illərə nisbətdə, bu il zəvvarlar arasında Hacı olmaq istəyənlər daha çoxdur. Həcc ziyarətinə adətən qrup halında səyahət nəzərdə tutulur. Əvvəllər avtobusla da Həcc ziyarətinə yollanmaq mümkün olub. Bu il isə avtobusla Həcc ziyarətinə yollanmaq yoxdur. Ancaq təyyarə ilə Həcc ziyarətinə getmək olar. Əvvəllər avtobuslarla Həccə yollanan zəvvarlar mütləq şəkildə İraq və Suriya ərazisindən keçməli olurdular. İndiki halda isə həmin ölkələrdə vəziyyət mürəkkəbdir. Avtobusla, ya da şəxsi maşınla Həcc ziyarətinə getmək mümkün deyil. Avtobuslarla Həccə getməyə ziyarət təşkil olunmayıb.

Qaldı ki, avtomobillə ziyarət etməyə, bu mümkün deyil. Çünki zəvvarların təhlükəsizliyi daha çox qorunur. Həm təhlükəsizlik, həm də təşkilatı məsələlər baxımından buna imkan verilmir. Ancaq qrup halında təyyarələrlə Həcc ziyarətinə getmək olur".

Qeyd edək ki, Azərbaycandan Həcc ziyarətinə ilk zəvvar qrupu avqustun 24-də, növbəti qruplar isə avqustun 25-26-da yola düşəcək. Zəvvarların qayıdışı sentyabrın 12-si, 13-ü və 14-nə nəzərdə tutulub.

❑ **Günel MANAFLI**

## Havanın temperaturu 42 dərəcəyə yüksələcək

**İyulun 29-da Bakıda və Abşeron yarımadasında hava şəraiti yağmursuz, gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, cənub küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 22-26 isti, gündüz 34-39 isti, Bakıda gecə 24-26 isti, gündüz 36-38 dərəcə isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75%, gündüz 40-45 % olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 25-26°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 26-27°, Türkan, Hövsan, Sahil, Şıxda 27-28° isti təşkil edəcək.

İyulun 28-29-da Abşeron yarımadasında zəif küləklərin və nisbətən rütubətli hava şəraitinin üstünlüyü fonunda isti temperatur diskomfortu əksər əhali üçün çox əlverişsizdir. Gündüz saatlarında uzun müddət açıq havada qalmaq məsləhət deyil. Azərbaycanın rayonlarında hava şəraiti yağmursuz olacaq. Lakin gecəyə doğru bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Qərb küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26 isti, gündüz 35-40, bəzi yerlərdə 42 isti, dağlarda gecə 15-20 isti, gündüz 27-32 dərəcə isti olacağı gözlənilir.


**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Bakının dostu niyə hakimiyyətdən getdi?

**Nəvaz Şərif hakimiyyətdən Qətərə görə uzaqlaşdırıla bilər. Bu sözləri öz facebook səhifəsində politoloq Orxan Qafarlı paylaşıb. O, Pakistan baş nazirinin hakimiyyətdən uzaqlaşdırılmasının arxasında Səudiyyə Ərəbistanı və Qərbin dayanma ehtimalının böyük olduğunu bildirib.**



"Pakistan Ali Məhkəməsi baş nazir Nəvaz Şərifi vəzifəsindən uzaqlaşdırdı. Bu mövzuda əvvəllər də yazmışdım. Şərifin vəzifəsindən uzaqlaşdırılmasının əsas səbəbi "Panama sənədləri" və Dubayda adına qeyd olunan şirkətlər idi. Nəvaz Şərifə qarşı belə bir əməliyyat Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanının ortaq fəaliyyəti nəticəsində həyata keçirilib. Təbii ki, burada Şərifin korrupsiyaya bulaşmasına haqq qazandırmıram. Bu əməliyyatın əsas səbəbi Qətərdir. Hər şey Pakistanın Qətərə qarşı sanksiyalara qatılmamasından sonra ortaya çıxdı. Səudiyyə Ərəbistanı Pakistan baş nazirini bu şəkildə cəzalandırdı. Digər tərəfdən isə Səudiyyə Ərəbistanının bu əməliyyatının Qərb tərəfindən də dəstəkləndiyini düşünürəm. Qərb onsuz da uzun illərdir Pakistan-Çin əlaqələrindən narahat idi. Ümid edirəm ki, bu siyasi böhran Pakistan demokratiyası üçün sınaq olacaq və pis sonluqla bitməyəcək" - politoloq bildirib.

## Bu gündən ali məktəblərə ixtisas seçimi başlayır

**İyulun 29-dan 2017/2018-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə bütün ixtisas qrupları (I - V) üzrə ixtisas seçimi başlayır. İxtisas seçimi avqustun 10-dək internet vasitəsilə aparılacaq. Müsabiqəyə yalnız bu müddətdə ixtisasları seçib öz elektron ixtisas seçimi ərizələrinə daxil edərək təsdiq etmiş abituriyentlər buraxılacaq.**



I və IV ixtisas qrupları üzrə müsabiqəyə ümumi balı 200-dən, hər hansı bir imtahan fənni istisna olmaqla, qalan dörd imtahan fənninin hər biri üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan *(dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 250-dən və hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan)* abituriyentlər buraxılır.

II və III ixtisas qrupları üzrə isə müsabiqəyə ümumi balı 200-dən, hər hansı bir imtahan fənni istisna olmaqla, qalan dörd imtahan fənninin hər biri üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan *(dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 300-dən və hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan)* abituriyentlər buraxılır.

## Moldovada azərbaycanlı biznesmenləri şantaj edənlər, işgəncə verənlər kimlərdir...

**Moldova Baş Prokurorluğu bu ölkədə fəaliyyət göstərən azərbaycanlı biznesmenləri şantaj və işgəncələrə məruz qoyan qruplaşmanın üzvlərinin həbsi barədə məlumat yayıb. Virtualaz.org xəbər verir ki, həmin qruplaşma üzvləri də azərbaycanlılardan ibarətdir, lakin adları hələlik açıqlanmır.**



Moldova Baş Prokurorluğunun bildirdiyinə görə, saxlanılan şəxslər azərbaycanlı biznesmenləri oğurlayıb, təhdid və şantaj edib, onları məcbur edib ki, əmlaklarını başqalarının adlarına keçirsinlər və iri məbləğlərdə pul versinlər. Məsələn, Drokiyevsk rayonundan olan biznesmeni qruplaşma üzvləri meşəyə aparıb və ağaca bağlayaraq işgəncə verib. Onlar həmin biznesmendən 17.5 min avro alıblar. Pulu verməyəcəyi təqdirdə ailə üzvlərinə divan tutacaqlarını deyiblər. Qruplaşmanın izinə Beltsa şəhərində yaşayan biznesmenin polisə şikayətindən sonra düşmək mümkün olub.

Xüsusi təyinatlı polislər qruplaşmanı yaxalamaq üçün əməliyyat keçirib, onların evində silah, döyüş sursatı, habelə azərbaycanlı biznesmenlərin işgəncəyə məruz qaldığını əks etdirən videofayllar tapılıb. Banda üzvlərini 15 ilə qədər həbs gözləyir.

## Şirvanda toy mərasimində bəyi əqrəb sancıb

**Şirvanda toy mərasimində bəyi əqrəb sancıb. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, hadisə Şirvandakı şadlıq saraylarından birində keçirilən toyda baş verib. Şadlıq sarayında toyu olan Şirvan sakini, 1990-cı il təvəllüdlü Dadaşov Elçin Eyvaz oğlunun əqrəb sancmasından sonra vəziyyəti ağırlaşıb.**

E.Dadaşov Şirvan şəhər xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilib, müvafiq tədbirlər görüldükdən sonra evə buraxılıb.

Eyni gündə başqa bir Şirvan sakini, 1979-cu il təvəllüdlü Azayev Natiq Mikayıl oğlu da əqrəb sancması diaqnozu ilə Şirvan şəhər xəstəxanasının reanimasiyasına yerləşdirilib. Ona da yardım edildikdən sonra evə buraxılıb.

## Lift İdarəsinin qalmaqallı rəisi işə çıxdı

**Bir müddət əvvəl qızı Aysel Şükürovanın dəbdəbəli toyu və zəngin həyatı ilə gündəmə gələn Bakı Lift İdarəsinin rəisi Qüdrət Şükürov məzuniyyətdən qayıdıb. Bu barədə modern.az-a Bakı Lift İdarəsindən məlumat verilib. İdarə əməkdaşı Q.Şükürova cinayət işi açılması, həbs olunması ilə bağlı mediada yazılanların həqiqətə uyğun olmadığını söyləyib. "Qüdrət müəllim hazırda işinin başındadır", deyə o bildirib.**

Qeyd edək ki, qızının 400 min dollarlıq toyu ilə bir müddət gündəm olan rəis barədə müxtəlif məlumatlar yayıldı. Hətta Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi tərəfindən "Bakılifttəmir" İstehsalat Birliyində maliyyə fırıldaqları və məmurların gəlir mənbələri, həmçinin "Bakı Lift"in baş direktoru Qüdrət Şükürovla bağlı araşdırmalara başlanıldığı iddia olunurdu.

Həmin vaxt bildirildi ki, qızı Aysel Şükürovanın 400 min dollarlıq toyu, dəbdəbəli həyat tərzi ilə gündəmə gələn Qüdrət Şükürovla bağlı məsələnin dərhal araşdırılması və ölçü götürülməsi qərarı verilib. Hətta sözügedən toyla bağlı da ayrıca araşdırma aparıldığı, toyda iştirak edən şəxslər, bəylə-gəlinə mahnı həsr edənlərin dindirildiyi yazılırdı. Amma rəsmi qurumlar bu məlumatları təsdiqləmədilər. Bu gün Qüdrət Şükürovun işinin başında olması da yazılanların, sadəcə, iddia olduğunu təsdiqlədi...

# Bakı bazarlarında mövsümə xas olmayan bahalaşma: qiymətlər niyə qalxır?

## Ötən ilin bu dövründə 4 kiloqramı 1 manat olan pomidorun kiloqramı indi 1 manatdır

**Yay mövsümünün meyvə-tərəvəz sarıdan ən bol dövrü olsa da, qiymətlər "od tutub yanır". Xüsusən də mövsümün ən çox tələbat olan məhsulları - pomidor, şaftalı, qarpızın qiyməti nəzərəçarpacaq dərəcədə artıb.**

"Yeni Müsavat"ın müxbiri bazardakı son durumu və bahalaşmanın səbəblərini öyrənmək üçün "8-ci kilometr" bazarına üz tutub. Qiymətlərin hansı həddə olmasından asılı olmayaraq bazarda alıcılıq yüksəkdir. Xüsusən qış tədarükünə hazırlaşanlar bu bazara üz tutaraq topdansatışdan lazımi meyvə-tərəvəzi alırlar.

Qiymətlərə gəlincə, artım olmasını satıcılar da etiraf edirlər.

Müşahidəmiz zamanı öyrənə bildik ki, ən çox istifadə olunan tərəvəzlərdən kartofun kiloqramı 30-50 qəpik, qırmızı soğan 60-70 qəpik, ağ soğan isə 40 qəpikdir. Bu məhsullarda bahalaşma yoxdur. Hətta topdansatışda kisə ilə aldıqda soğanın kiloqramı 30 qəpiyə enib.

Bazarın topdansatış yarmarkasında kartofun kiloqramını 35-37 qəpikdən, soğanı isə 18-20 qəpikdən almaq mümkündür.

Digər məhsullardan kələmin 1 kiloqramı 50 qəpik, xiyar 50, çuğundur 50-70 qəpik, kök 70 qəpik, qarğıdalının 1 ədədi 30, pomidorun kiloqramı isə 80 qəpik-1 manat arasında dəyişir.

Topdansatışda pomidorun 32-33 kiloqramlıq yeşiyinin qiyməti 17 manatdır. Ötən ilin bu dövründə 4 kiloqramı 1 manat olan pomidorun kiloqramı indi 1 manatdır. Sarımsaq qış dövrü ilə müqayisədə ucuzlaşıb, kiloqramı 4-4,5 manata təklif olunur. Armudun kiloqramı 80 qəpik -1 manat, gavalı 60 qəpik, ərik 2-2.50 qəpiyədir.

Satıcılar deyir ki, ötən illə müqayisədə bu il qarpız bahadır. Topdansatışda kiloqramı 18 qəpikdən aşağı qarpız yoxdur. Qiymətlər üzrə ən ucuz yer "8-ci kilometr bazarı" hesab olunur. Burada pərakəndə satışda qarpızın kiloqramı 25 qəpikdən satılır. Bundan əlavə, alıcılar qeyd edir ki, əvvəlki dadı da qalmayıb. Rəngi qırmızı olsa da, şirinliyi az olur.

Onu da qeyd edək ki, "8-ci kilometr bazarı"ndakı qiymətlər marketlərdən və xırda dükanlardan ucuzluğu ilə fərqlənir. Yaşayış məhəllələrindəki meyvə-tərəvəz dükanlarından bu qiymətlər 30 faiz, bəzən 50 faiz baha təklif olunur.

**Satıcı Yavər İsmayılov bizimlə söhbətində dedi ki, benzinin bahalaşması qiymətlərə təsir edir:** "Sabirabaddan qarpızın kiloqramını topdan 15-16 qəpikdən alırıq. Bakı bazarlarında topdan 20 qəpikdən satırıq. Kilo-kilo isə 25 qəpikdir. Bu il qarpızın bahalaşmasının səbəblərindən biri benzinin qalxmasıdır. Digər səbəbi isə məhsulun azalmasıdır. Çalışırıq ki, dizellə işləyən yük maşını götürək. Çünki qarpızı almaq üçün kəndləri qapı-qapı gəzirik. Buna görə də çox yanacaq sərf edirik. Hələ ki Sabirabaddan gətiririk, ancaq bir neçə gündən sonra Bərdə qarpızları bazarlara çıxarılacaq. Bu il Bərdədə qarpız bol olacaq. Bu da təbii ki, qiymətin düşməsinə səbəb olacaq".








**Satıcı onu da bildirdi ki, fermerlərdən yerindəcə mal alıb Rusiyaya ixrac edənlərin sayı artıb və bu da daxili bazarda bahalaşma yaradır:** "Əvvəllər Rusiyaya mal daşıyan alverçilər bazarlardan mal alıb aparırdılar. İndi əksinə, bostanlara gedib, kəndlinin özündən alırlar. Özü də yaxşı pul verirlər. Belə olanda da biz məcbur olub baha qiymətə alırıq".

**Satıcıların ümumi rəyindən belə bəlli oldu ki, qarpız və pomidorun bahalaşmasının əsas səbəbi bu məhsulların Rusiyaya ixracının artması ilə əlaqəlidir:** "Ötən illə müqayisədə bu il pomidor və qarpızın qiymətində kəskin bahalaşma müşahidə olunur. Bunun əsas səbəbi kəndlinin məhsulunu yerli bazarlara satmamasıdır. Əvvəllər hamı öz məhsulunu baha satmaq üçün Bakı bazarlarına gətirirdisə, indi öz bostanlarında rahatlıqla Rusiyaya mal aparan alverçilərə satırlar. İri yük maşınları birbaşa bostanlardan malları yığıb, Rusiyaya aparırlar. Bu da təbii ki, kəndliyə sərf edir. Yol xərcindən və əlavə xərclərdən azad olurlar. Bunun nəticəsidir ki, iki-üç gün əvvəl pomidorun qiyməti 60-70 qəpik bahalaşdı. Təsəvvür edin ki, 32 kiloqramlıq pomidor 26-27 manata qalxdı. İndi hələ ki qiymətlər düzəlib. Böyük ehtimalla yenidən bahalaşma olacaq".

**Digər satıcı Əsəd Qarayev bildirdi ki, yaxın günlərdə pomidor ucuzlaşa bilər:** "Pomidorun bahalaşması normal haldır. Bu aylar bir neçə günlük durğunluq olur. Ən çox pomidor becərilən rayon Xaçmazdır. Bildiyim qədər orada pomidorun yetişməsi gecikir. Bugünlərdə məhsul yığımı başlamalıdır. Pomidor gəlirli olduğundan sahibkarlar yüz hektarlarla pomidor əkiblər. Bir neçə gündən sonra bazarda pomidor su qiymətinə olacaq. Ancaq ötən illə müqayisədə təbii ki, bahadır. Bir manata 3 kiloqram pomidor alırdıqsa, indi bir kiloqram alırıq".

Qeyd edək ki, yay aylarında adətən ətin qiyməti ucuzlaşsa da, hazırda bunun əksi müşahidə olunur.

Qəssabxanalarda mal və qoyun ətinin qiyməti 11 manat, marketlərdə isə 12 manata təklif olunur. Bunun səbəbini isə qəssablar yemin baha olması ilə əlaqələndirirlər.



**Mövzunu şərh etmək üçün iqtisadçı ekspert Natiq Cəfərli ilə əlaqə saxladıq. O bildirdi ki, kənd təsərrüfatı məhsullarının mövsümə xal olmayan şəkildə bahalaşmasının bir neçə səbəbi var:** "Əsas səbəblərdən biri ötən ildən başlayaraq texniki bitkilərə üstünlük vermək şərti ilə əkin sahələrinin azaldılması oldu. Ətin bahalaşmasının da əsas səbəbi budur. Regionlarda yem qıtlığı yarandı, ot kifayət qədər bahalaşdı. Bu da ətin qiymətinə ciddi təsir göstərdi. Digər səbəblərdən biri də kənd təsərrüfatı məhsullarının istehsalının artmadığı bir şəraitdə ixracata üstünlük verilməsi oldu. Bu addım ölkəyə valyuta gətirsə də, daxili bazarda məhsulların çeşidinin və həcminin azalmasına səbəb oldu. Nəticədə qiymətlərə mənfi təsir göstərdi. Digər səbəb isə ölkə daxilində istehlakın artmasına səbəb olan turist axınıdır. Doğrudan da bəzi ölkələrdən gələn turist sayında nəzərəçarpacaq dərəcədə artım var. Ərəb ölkələrindən gələn turistlərin sayı ötən ilə nisbətən 20 dəfəyə yaxın artıb. Turist sayının artması isə istehlakçı sayının artması deməkdir. Bazarlarda məhsulun həcminin dəyişmədiyi, istehsalın artmadığı bir şəraitdə istehlakın artması qiymətlərə təsir göstərir".

**İqtisadçının sözlərinə görə, başqa bir səbəb yaxın günlərdə Aİ 92 markalı benzinin 70 qəpikdən 90 qəpiyə qədər bahalaşmasıdır:** "Doğrudur, kənd təsərrüfatı məhsullarının istehsalında əsasən dizel yanacağından istifadə olunur. Ancaq həmin məhsulların daşınmasında, kənd təsərrüfatının logistikasında çox zaman Aİ 92 markalı benzinlə çalışan avtomobillərdən də istifadə olunur. Bu da qiymətlərə təsir göstərən mühüm amillərdən biridir. Digər məsələ isə makroiqtisadi problemdir. Digər sahələrdə daxili istehsal olmadığından əksər sahələrdə qiymətlər artıb. Bu da aqrar sahədə çalışan insanların xərclərini artıb. Fermerlər artan xərclərini ödəmək üçün bazara çıxartdıqları məhsulların qiymətini də artırmaq məcburiyyətində qalırlar. Məsələn, bu yaxınlarda bəzi universitetlərin təhsil haqqı artdı. Bəzi fermerlərin, kənd təsərrüfatında çalışan insanların övladları pullu təhsil alırsa, deməli, onların büdcəsinə də təsir göstərir. Yəni bir çox amillər var ki, onlar birləşəndə mövsüm üçün xarakterik olmayan qiymət artımını müşahidə edirik. Əgər məhsul bolluğu şəraitində bu baş verirsə, payızın sonu , qışın əvvəllərində *(Yeni il öncəsi qiymət artımın da olacağını nəzərə alsaq)* daha kəskin qiymət artımı ilə qarşılaşa bilərik".



**❑ Nərgiz LİFTİYEVA**
**❑ Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 158 (6772) 29 iyul 2017

# Tanınmış iqtisadçıdan dollar-manat kursu ilə bağlı xəbərdarlıq

**Vüqar Bayramov:** "Növbəti iki ay və dekabr Mərkəzi Bank üçün çətin olacaq"



Vüqar Bayramov

**Dolların rəsmi məzənnəsi manat qarşısında cüzi olaraq ucuzlaşıb. Belə ki, Azərbaycan manatının iyulun 28-nə olan məzənnəsi 1 ABŞ dollarına görə 1,7009 manat səviyyəsində müəyyən olunub. Ümumilikdə milli valyutanın yay aylarında sabit qaldığını demək mümkündür.**

Xatırlayırsınızsa, bir neçə ay öncə bəzi iqtisadçılar ölkəmizdə keçirilən beynəlxalq idman yarışlarından sonra manatın məzənnəsinin ucuzlaşacağını proqnoz edirdilər. Lakin artıq yay fəslinin ilk yarısı geridə qalıb və bu dövr ərzində manat sabitliyini qoruyub saxlayıb.

**İqtisadçı ekspert Vüqar Bayramov** bildirdi ki, son günlər valyuta bazarında aparılan monitorinqlərə görə, dollara tələb artıb: "Bu da özünü valyuta bazarındakı məzənnədə göstərməkdədir. Əgər əvvəl 100 dollar almaq üçün 169 manat ödəmək lazım idisə, indi bu rəqəm 170 manatdan çoxdur. Təbii ki, bahalaşma cüzidir. Ancaq bu bahalaşma dollara olan tələbin artmasından xəbər verir. Sözsüz ki, burada digər məqam da var ki, dollara tələb artsa da, valyuta bazarında dolların manata nisbətən məzənnəsi yüksəlsə də, Mərkəzi Bankın rəsmi kursunda dolların manata nisbətən ucuzlaşması müşahidə olunur. Bu isə ondan xəbər verir ki, Mərkəzi Bank mövcud məzənnə intervalını qoruyub saxlamağa çalışır".

**Ekspert manatın məzənnəsi ilə beynəlxalq idman yarışları arasında birbaşa əlaqənin olmadığını diqqətə çatdırdı:** "Manatın məzənnəsini müəyyənləşdirərkən daha çox dollara tələbin artacağı və azalacağı ayları müəyyənləşdirməyə ehtiyac var. Nəticə etibarilə, dollara tələbin artacağı aylardan biri avqustdur. Bu ay yaxınlaşdıqca dollara tələbatın artdığını müşahidə edirik. Digər ay isə dekabr ayıdır. Həmin dövrdə də dollara tələbin artacağı proqnozlaşdırılır. Səbəb isə odur ki, dekabr xarici borc öhdəliklərinin ödənilməsi ayıdır, digər tərəfdən, həmin ayda idxal və xarici səfərlər artır. Bu da valyuta bazarında özünü göstərir. Bu baxımdan, avqust və dekabr ayında dollara tələbin artacağını proqnozlaşdırırıq. Bunun manatın məzənnəsinə təsir göstərəcəyini demək çətindir. Çünki Mərkəzi Bank yenə də məzənnənin müəyyənləşdirilməsində aparıcı rol oynayır və valyuta bazarına təsir göstərir. AMB-nin rəsmi açıqlamasında da bəyan edilir ki, ilin sonuna kimi manatın dollara nisbətən mövcud məzənnəsinin saxlanılmasına çalışılacaq. Bəzi hallarda hərraclara çıxarılan dolların müəyyən hissəsi satılmır. Buna rəğmən, AMB manatın da möhkəmlənməsində maraqlı deyil".

**İqtisadçının fikrincə, AMB-nin hərraclardan sonra elan etdiyi rəsmi məzənnə də ondan xəbər verir ki, qurum mövcud intervalı qoruyub saxlamağa çalışır:** "Mərkəzi Bank nə manatın, nə də dolların kəskin möhkəmlənməsində maraqlı deyil. Buna necə nail olunacağı dollara olan tələbin necə ödənilməsindən asılı olacaq. Növbəti iki ay, eləcə də dekabr Mərkəzi Bank üçün elə də asan keçməyəcək".

**V.Bayramov onu da vurğuladı ki, əvvəlki dövrdən fərqli olaraq Mərkəzi Bank manatın məzənnəsinin sabitliyi üçün vəsait xərcləmir:** "AMB intervensiyanı dayandırıb, artıq Dövlət Neft Fondunun bazara çıxartdığı vəsaitlər hesabına manatın məzənnəsini müəyyənləşdirməyə və qoruyub saxlamağa çalışır. Bu da AMB-nin rezervlərində öz əksini tapır. Bu qurumun rezervlərində son aylar artım müşahidə olunur. Bu da intervensiya xərclərinin olmaması ilə bağlıdır. Bazarda dollara olan tələbin ödənilməsində aparıcı olan Dövlət Neft Fondudur. DNF bazarda əsas oyunçudur. Bu qurumun hərraclara çıxardığı valyutanın həcmi birbaşa manatın məzənnəsinə təsir göstərir. Digər tərəfdən, manatın dollara nisbətən məzənnəsinin necə dəyişməsinə baxsaq, burada Rusiyada olan təcrübənin də əkini tapmasını görə bilərik".

**Ekspertin fikrincə, hazırda dollara artan tələb yığımlarla bağlı deyil, əsasən idxal əməliyyatları ilə bağlıdır:** "Xatırlayırsınızsa, biz dollarlaşma prosesi yüksələn zaman əks dollarlaşma prosesinin də olacağını bildirmişdik. Çünki banklardakı yığımların təxminən 80 faizi dollarda saxlanılır, vətəndaşlardakı yığımların da 90 faizindən çoxu dollarladır. Praktik olaraq, biznes də, sadə vətəndaşlar da dollarlaşıb. Nəticədə dollara tələb azalıb. Ümumilikdə isə idxalın əvəzlənməsi, dövlət qurumları üçün idxalın qadağan edilməsi, DNF-nin vəsaitləri hesabına dollara olan tələbin ödənilməsi manatın sabitliyi üçün zəmin yaradır. Təbii ki, burada Mərkəzi Bankın bazara göstərdiyi təsir də rol oynayır".

❑ Nərgiz LİFTİYEVA



# İslam dünyasının "Qüds" yarası: Azərbaycan Fələstinin, yoxsa İsrailin yanındadır?

**Son günlərdə Fələstin və İsrail münasibətlərində yaşanan gərginlik, eləcə də Qüdsdə "Əl-Əqsa" məscidi ilə bağlı başa verənlər Yaxın Şərqdə başlıca problemə çevrilib. Vəziyyət o həddə çatıb ki, artıq BMT TŞ üzvləri hərəkətə keçib. İslam ölkələri də Qüds məsələsi ilə bağlı narahatlıqlarını ifadə ediblər. Bu məsələ artıq İslam dünyasının vahid amalına çevrilib. Hətta bu səbəbdən Türkiyə ilə İsrail arasında gərginlik yaşanıb. Beynəlxalq İslam təşkilatları bəyanatlar yayıb və Qüdsü 2018-ci il üçün İslam Gənclər Paytaxtı elan ediblər.**

Azərbaycan da Qüds problemində Fələstini dəstəklədiyini gizlətmir. Belə ki, rəsmi Bakı iyulun 20-də Qüds problemi ilə bağlı keçirilən 4-cü beynəlxalq konfransa ev sahibliyi edib.

BMT və İƏT tərəfindən təşkil olunmuş tədbirdə İsrail əleyhinə sərt bəyanatlar səsləndirilib. Azərbaycan tərəfi də Qüds məsələsinə aid BMT qətnamələrini dəstəklədiyini ifadə edib. Bu konfransın Bakıda keçirilməsi də Azərbaycanın Bu Fələstinin mövqeyini dəstəklədiyinin və İsrailin Qüdslə bağlı siyasəti ilə həmrəy olmadığının ifadəsi kimi dəyərləndirilir.

Ancaq bir məqam da var ki, Qüds məsələsində Azərbaycan digər İslam dövlətlərdən fərqli olaraq, sərt mövqe ortaya qoymur, İsraillə əməkdaşlığı davam etdirir, strateji münasibətlər qurur.

Politoloqlar isə istənilən məsələdə Azərbaycanın milli-strateji maraqlarının digər maraqlardan üstün olduğu qənaətindədirlər.



**Vüqar Zifəroğlu:** "Qüds problemi kifayət qədər qarışıq və siyasi manipulyasiyalara açıqdır; bu baxımdan, ölkəmizin bu məsələdə daha təmkinli davranması anlaşılandır"



**Elxan Şahinoğlu:** "Bu məsələdə də Azərbaycan İslam aləminin mövqeyini bölüşür, Fələstinin müstəqilliyinə tərəfdardır; İsrail də bunu dərd eləmir"

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan siyasi analitik Vüqar Ziferoğlu bəzi müsəlman ölkələrinin bu məsələdən bir siyasi alət kimi istifadə etdiyini önə çəkdi:** "Qüds problemi, ümumiyyətlə, Yaxın Şərqdə son dərəcə həssas və ciddi manipulyasiya mövzusu olan bir problemdir. Təsadüfi deyil ki, İslam ölkələrinin öz aralarında da bu problemə tam vahid baxış sərgilənmir və bir çox hallarda Qüds ümmanın öz içində də ciddi rəqabət obyekti olaraq da görülür. Bildiyiniz kimi, İran ərəb ölkələrindən fərqli olaraq anti-İsrail siyasətində hər zaman Qüds amilini qabardır. Hətta belə demək mümkündür ki, "Beynəlxalq Qüds günü"nün elan edilməsi və hər il qeyd edilməsindən tutmuş, Fələstin məsələsində aktiv rol almasına qədər bir çox məqamlarda problemi öz inhisarına da almağa çalışır. Təbii ki, burada ərəb ölkələri ilə İsrailin münasibətləri və eyni zamanda İran-İsrail münasibətləri də önəmli faktordur. Burada başqa bir məqam da ərəb-İran münasibətləri və onların Fələstin probleminə baxış fərqləridir. Unutmaq olmaz ki, rəsmi Tehran mütləq şəkildə HAMAS-ı dəstəkləyir və Fələstin problemində onun rolunun artmasından yanadır. Halbuki ərəb ölkələri və dolayısı ilə Qərb "əl-Fətih"in proseslərdə daha üstün mövqedə olmağını dəstəkləyirlər və açıq siyasi dəstək verməkdədirlər".

**V.Ziferoğlunun sözlərinə görə, Azərbaycan İslam ölkələri ilə yanaşı , İsraillə də strateji əməkdaşlıq qurub və bu ölkəmizin maraqları çərçivəsindədir:** "Qüds problemi kifayət qədər qarışıq və siyasi manipulyasiyalara açıqdır və bu baxımdan, ölkəmizin bu məsələdə daha təmkinli davranması anlaşılandır. Nəzərə almaq lazımdır ki, Azərbaycan İslam sivilizasiyasının bir nümayəndəsi və ərəb ölkələri ilə yaxın olmaqla yanaşı, həm də İsraillə ciddi strateji əməkdaşlıq içindədir və bu əməkdaşlıqdan tərəflər qarşılıqlı olaraq faydalanırlar".

**Politoloq Elxan Şahinoğlu da "Yeni Müsavat"a açıqlamasında Azərbaycanın Qüds məsələsində kəskin mövqe ortaya qoymamasının səbəbi kimi İsraillə olan əməkdaşlığı əsas göstərdi:** "Azərbaycanın İsraillə çox strateji əlaqələri var. İran isə bu əlaqələrdən hər zaman narahat olub, açıq və qapalı görüşlərdə hər zaman bu narahatlığını dilə gətirib. İranlı diplomatlar da mənimlə görüşən zaman hər dəfə bu narazılıqlarını dilə gətirirlər. Mən də hər zaman bu fikrimi onlara çatdırıram ki, bizim İsraillə əməkdaşlığımız Azərbaycanın təhlükəsizlik maraqlarına uyğundur. Çünki İsraildən müasir silahlar alırıq və həmin silahlar hesabına ötən ilin aprelində işğalçı Ermənistana çox böyük zərbələr vurduq. Üstəgəl, Ceyhan limanı üzərindən onlara neft satırıq. İsrail neftə olan tələbatının 40 faizini Azərbaycan hesabına təmin edə bilir. Strateji əlaqələr mövcuddur. Bu baxımdan, Azərbaycan İsraillə əlaqələrindən qopan deyil".

**Politoloqun sözlərinə görə, İsrail Azərbaycanın bir İslam ölkəsi kimi Fələstinlə bağlı mövqeyini anlayışla qarşılayır:** "Eyni zamanda Azərbaycan bir müsəlman ölkəsidir. İslam aləmindən də dəstək alır. Düzdür, bəzi İslam ölkələri sözdə dəstək olsalar da, reallıqda Ermənistanla çox sıx əlaqələr qururlar. Amma yenə də Azərbaycan İslam aləminin tərkib hissəsidir. Qüds məsələsində də Azərbaycan İslam aləminin mövqeyini bölüşür, Fələstinin müstəqilliyinə tərəfdardır. Təsadüfi deyil ki, Azərbaycanda Fələstin səfirliyi də fəaliyyət göstərir. Ona görə də, düşünürəm ki, Qüdslə bağlı konfransın Azərbaycanda keçirilməsi ölkəmizin həm İsraillə, həm də ərəb dünyası ilə bərabər münasibətlərindən xəbər verir. Ola bilər ki, bu konfransın keçirilməsi heç bizim təşəbbüsümüz deyil. Bəlkə də ərəb dünyası Azərbaycanın nəbzini yoxlamaq istəyib ki, biz belə bir konfransın keçirilməsinə razı olarıq ya yox. Əgər razı olmasaq, bizi ittiham edə bilərdilər ki, İsraillə yaxın olduğumuza görə bu cür konfransı keçirməkdən yayınırıq. Bu da bir reallıqdır ki, İsrailin Fələstinlə bağlı siyasətini biz də qəbul etmirik. BMT qətnamələrinə uyğun olaraq Fələstin də bir müstəqil dövlət kimi varlığını qorumalıdır və Qüds məsələsi də həll olunmalıdır".

**E.Şahinoğlunun fikrincə, Qüdslə bağlı konfransın Bakıda keçirilməsi onu göstərir ki, Azərbaycan bu məsələdə İslam dünyasının bir parçası kimi hərəkət edir:** "Mən hesab edirəm ki, İsrail də Qüdslə bağlı beynəlxalq konfransın Azərbaycanda keçirilməsinə etiraz etməyib. Çünki o da anlayıb ki, Azərbaycan İslam aləminin tərkib hissəsidir. Bu proseslərdən kənarda qala bilməz. Başqa bir misal da odur ki, Azərbaycanın İsraildə səfirliyi yoxdur. Baxmayaraq ki, İsrailin Azərbaycanda səfiri var və iki ölkə arasında çox sıx əməkdaşlıq var. İsrail bunu da özünə dərd eləmir, anlayır ki, Azərbaycan müəyyən problemlər yaşaya bilər. Ancaq mən dəfələrlə qeyd etmişəm ki, Azərbaycanın İsraildə səfiri olmalıdır.

Biz İslam aləminin də Fələstinlə bağlı qətnamələrinə şərik çıxırıq. Ancaq eyni zamanda İslam ölkələri bizim daxili işlərimizə qarışmamalı və deməməlidirlər ki, İsrailə əlaqəni kəsin və ya onlardan silah almayın. Bu bizim öz işimizdir, milli və təhlükəsizlik maraqlarımız nəyi diqtə edirsə, biz o yola da getməliyik. Azərbaycanla yanaşı, Qazaxıstan da İslam aləminin tərkib hissədir. Onların da İsraillə çox sıx əməkdaşlıqları var. Hətta Azərbaycanda fərqli olaraq, Qazaxıstanın İsraildə səfirliyi də var. Təsadüfi deyil ki, İsrailin baş nazirləri, prezidentləri bu bölgəyə səfər edəndə hər zaman iki müsəlman dövlətinə səfər edirlər: Azərbaycan və Qazaxıstana".

❑ Nərgiz LİFTİYEVA

# 6-cı "kalon"da dəhşətli işgəncələr haqda iddialar - məhkumların yaxınlarından şok sözlər

## Dustaqların qohumları: "Döyürlər, asırlar, deyirlər ki, bizdən müalicə, yemək istəmə, şikayət yazma. Öl, qal burada"; Penitensiar Xidmət məsələni araşdıracaqlarını deyir…

**Penitensiar Xidmətin 6 saylı cəzaçəkmə müəssisəsində dəhşətli işgəncələr haqda redaksiyamıza məlumatlar daxil olub. 2012-ci ildən 6 saylı cəzaçəkmə müəssisəsində saxlanılan Tahir Şəmməd oğlu Həsənovun qardaşı İmran Həsənov deyib ki, müəssisədə saxlanma şəraitinin son dərəcə ağırlığına etiraz edən dustaqları döyür, işgəncə verir, günlərlə asılı vəziyyətdə saxlayırlar.**

**"... Əllərinə qandal vurub dəmir "raşotka"dan asırlar"**

""6-cı "kalon"da məhkumlara yemək verilmir. Sadəcə, içində su olan bir qab verirlər, içində də 2-3 makaron olur. Mənə zəng edir, xəstə adamdır, deyir ki, nə yemək tapa bilirəm, nə müalicə edirlər, deyir, mənə kömək elə, qardaş. Mənim əlim heç yerə çatmır. Kasıb adamam, 3 uşağım var, kirayədə yaşayıram. Dövlət rəsmiləri çıxıb deyirlər ki, hər bir dustağın saxlanılmasına ayda 420 manat pul xərclənir. Hara gedir bu pullar? Qardaşım orada dustaqlardan qənd-çay dilənir. 400-500 məktub özü yazıb, bir o qədər də mən yazıb müraciət etmişəm. Həmin məktublara görə qardaşımı lüt soyundurub əllərinə qandal vurub dəmir "raşotka"dan asırlar. 2-3 gün həmin vəziyyətdə saxlayırlar. Başa düşürsüz, asırlar! Bu, orada adi haldır. Bəlkə sizə qəribə gələr, amma 6-cı "kalon"da məhkumu döyüb asmaq adi hal, qaydadır. Döyürlər, asırlar, deyirlər ki, bizdən müalicə, yemək istəmə. Şikayət yazma. Öl, qal burada".

**"... Onların ayaqlarına düşüb, yalvarıb ki, məni müalicə edin"**

**İmran Həsənov deyir ki, qardaşı 2012-ci ildə həbsə alınanda sağlam olub. Bu gün isə o, çoxsaylı xəstəliklərdən əziyyət çəkir:** "Zob, əsəb, yuxusuzluq, ürəksıxılma ən yüngül xəstəlikləridir. Həbsdə olarkən dişi ağrıyıb. İlham adlı həkim dişini çəkib. Sonradan məlum olub ki, həkim ona Hepatit virusu keçirib. Mədə-bağırsağında ciddi problemlər var, böyrək, prostat ağrılarından əziyyət çəkir, sidiyini saxlaya bilmir. Həbsdə olduğu 5 il ərzində 25 dəfə Məhkumların Müalicə Müəssisəsində olub. Lakin orada heç bir müalicə almayıb. Çünki həkimlər onu, sadəcə, müalicə etməyiblər. Pulumuz yoxdur ki, onu orada öz hesabımıza müalicə etdirək. Orada dəfələrlə olmuşam. Adı müalicə müəssisəsi olsa da, orada əsasən sağlam məhkumları saxlayırlar. İmkanlı məhkumlar türmələrdə cəza çəkə bilmirlər. Buna görə də aya 300-400 manat ödəyib ora gəlirlər, orada dincəlirlər. 25 dəfə müalicə müəssisəsində olduğu müddətdə qardaşıma heç bir yardım göstərilməyib. Bu faktdır. Müalicə müəssisəsində 7-8 həkim var, başda rəis Elgiz İsmayılov, müavin Xəyyam, rejim rəisi Əhməd, terapevt həkimlər - Ramiz, Aqşin, Mehman Qədirov, Anar. Feyruz, Məhərrəm, Hafiz, Səadət Əzizova Elgiz onların ayaqlarına düşüb yalvarıb ki, məni müalicə edin. Həkimlər də deyir ki, iynə-dərman yoxdursa, nə edək?

Qardaşım da deyir ki, diaqnoz qoyun, müalicə kursu yazın, iynə-dərmanı evdən aldırıb gətizdirək. Qardaşım bütün bu xəstəliklərə həbsdə tutulub. 2012-ci ildə orada bir xəstəliyə tutulub, müalicə etməyiblər. Həmin xəstəlikdən bir başqa xəstəlik törənib. Yardım etməyiblər 5 il ərzində. Ədliyyə Nazirliyindən tutmuş Ombudsman Aparatına, Tibb Baş İdarəsinə dəfələrlə məktublar yazıb. Gəliblər, yoxlayıblar, ört-basdır edib, göz yumub gediblər. Bununla bağlı Ədliyyə Nazirliyinə, Tibb Baş İdarəsinə, Penitensiar Xidmətə müraciətlər etmişik. Xeyri olmayıb".

**"... Rəis, bu yeməyi insan yeyər?"**

**İmran Həsənov bildirir ki, şikayətlərə görə qardaşına dəhşətli işgəncələr verilir:** "Xəstə adamı aparıb lüt soyundurublar. Qardaşıma deyiblər ki, niyə şikayət edirsən?! Dəfələrlə əllərinə qandal vurub vəhşicəsinə döyüblər. Sonuncu dəfə fevralın 28-də asıblar qardaşımı. Həmin gün qardaşım ona verilən yeməyi götürüb və rəis müavininin yanına gedib. Deyib ki, rəis, bu yeməyi insan yeyər? Buna görə rəisin müavini Rasim müəllim, "zampolit" Zahid müəllim vurublar qardaşımı. Dəyənəklə otaqlarında döyüblər, sonra da aparıb "kars"a salıblar, orada da döyüblər. Bizim şikayət etməyə yerimiz qalmayıb. Mən məcbur olub mətbuata üz tutmuşam. Qardaşım Azərbaycan vətəndaşıdır. Azadlıqdan məhrum edilib. Onun həyatdan məhrum edilməsinin qarşısı alınsın".

**"... Aparıb lüt soyundurublar, döyüb sol qulağını partladıblar, sol gözünü əziblər"**





**6 saylı cəzaçəkmə müəssisəsində saxlanılan Xocalı qaçqını, şəhid ailəsinin üzvü, erməni əsirliyində olmuş Elgün Əhliman oğlu Qəhrəmanovun yaxınları da işgəncələrdən şikayətçidirlər. E.Qəhrəmanovun bibisi Rahilə Rəşid qızı Hacıyeva deyir ki, qardaşı oğlu 2012-ci ildə qonşusu ilə davaya görə həbs olunub. 6 il azadlıqdan məhrumetmə cəzasına məhkum olunub.**

"Anası Rəsmiyyə İntizam qızı Qarayeva yataq xəstəsidir. Qalmışıq onun dərdinə çəkək, yoxsa Elgünün üzləşdiyi zülm-zillətlə mübarizə aparaq. 2013-cü ildən 6 saylı cəzaçəkmə müəssisəsində saxlanılır. Həmin vaxtdan yeməkxanada işləyir. Dustaqlar üçün yemək bişirir. Ailəlidir. Aparıb döyüblər, sol qulağını partladıblar. Döyənlər rəis müavini Zahid Bədəlxanov və müəssisənin digər işçiləridir. Səbəb isə odur ki, Elgün deyib ki, yemək pisdir, yeməyə heç nə yoxdur, hər şey pulladır. Belə yaşayış olmaz. Bunu görə aparıb lüt soyundurublar, döyüb sol qulağını partladıblar, sol gözünü əziblər.

İndi sol gözü həddən artıq zəifləyib. 6 ay 14 gün ailəliklə erməni əsirliyində olmuşuq, Elgünün bacısının gözünü ermənilər çıxarıb. Əmisini gözlərinin qarşısında işgəncə ilə öldürüblər. Bilirik ki, erməni düşməndir. Bəs 6-cı "kalon"da işləyənlər kimdir? Nə millətidirlər?"

**"Elgün üzləşdiyi zülmlərə görə orada 2 dəfə özünü asıb"**

**Rahilə Hacıyeva deyir ki, qardaşı oğlunun üzləşdiyi qanunsuzluqlar, işgəncələrlə bağlı hər müraciətləri onlara daha artıq işgəncə xəbəri eşitdirir:** "Şikayət yazırıq, özü yazır, gedib guya yoxlayırlar. Elgünü məcbur edirlər ki, yazsın ki, guya onun heç bir şikayəti yoxdur. Elgün üzləşdiyi zülmlərə görə orada 2 dəfə özünü asıb. Aidiyyəti qurumların rəhbərlərinin 6-cı "kalon"da baş verən bütün bu işlərdən, dəhşətlərdən xəbəri yoxdur. Orada əməliyyatçılar Elşən, Əli, kapitan Gülhüseyn və başqaları dustaqlara divan tuturlar. Biz şikayət yazıb normal rəftar tələb etdiyimizə görə Elgünü 7 gün "kars"a salıblar. Lüt soyundurub əlləri qandallı şəkildə yorğan-döşəksiz, ac-susuz orada saxlayıblar. Allahın suyunu belə verməyiblər. Əsirlikdə olanda heç ermənilər belə etmirdilər. Heç olmaya su verirdilər. Bu dəqiqə gedib onun bədəninə baxsalar, döyülməkdən bədəni gömgöydür. Qandal qollarında ətinə keçib, yerləri qalıb. Orada pulsuz yaşamaq olmur. Pulu olmayan orada ölməlidir".

**"... Dönə-dönə xahiş edirik, 6 saylı cəzaçəkmə müəssisəsində baş verənləri araşdırıb..."**

**Məhkumun bibisi ölkə rəhbərliyinə müraciət edib:** "Çox xahiş edirik, bu məlumatları Penitensiar Xidmətə verməyin. Çünki Elgünün şikayətlərini guya araşdırmağa göndərilən yoxlayıcılar ona təzyiq altında heç bir şikayətinin olmaması haqda yazdırılan müraciətlərə heç bir etiraz etmirlər. Elgünə deyirlər ki, istədiyimiz kimi yazmasan səni "raskrutka"(cəza müddətinin artırılması - E.M.) edəcəyik. Gedib Elgünün müraciətini alıb işlərini bitmiş hesab edirlər. Onlar gedəndən sonra Elgünə dəhşətli işgəncələr verilir. Heç nəyə baxmırlar. Xocalı qaçqını, şəhid ailəsi kimi ölkə rəhbərliyindən dönə-dönə xahiş edirik, 6 saylı cəzaçəkmə müəssisəsində baş verənləri araşdırıb məhkumların taleyi ilə oynayan, onları ac-susuz, müalicəsiz saxlayan, işgəncə verən türmə rəhbərliyini dəyişdirib qanunla cəzalandırsınlar".

**Penitensiar Xidmətdən isə deyirlər ki...**

**Penitensiar Xidmətin mətbuat xidmətinin rəisi Mehman Sadıqov məhkumların yaxınlarının fikirlərinə münasibət bildirib. Deyib ki, son illər ərzində məhkumların qidalanmasına xüsusi diqqət yetirilir:** "Qidaların çeşidinə fikir verilir. Yeməyin bişirilməsinə xüsusi nəzarət olunur".

**Xidmət rəisi bildirib ki, məhkumlara tibbi yardım göstərilməsi üçün də dövlət kifayət qədər vəsait ayırır:** "Bizim həkimlər Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə tabe olsalar da, müstəqildirlər. İstər təcridxanalar, istərsə də cəzaçəkmə müəssisələrində kifayət qədər dərman preparatları var. Müalicə müəssisəsi yeni tibbi avadanlıqlarla təchiz olunub. Əgər hansısa məhkumun göstərilən tibbi yardımla bağlı narazılığı varsa, hesab edirsə ki, daha keyfiyyətli tibbi yardım ala bilər, qanun icazə verir ki, istədiyi ödənişli tibb müəssisəsinə müraciət edib orada çalışan həkimlərin xidmətlərindən istifadə edə bilər".

**M.Sadıqov deyib ki, məhkumların yaxınlarının şikayətlərində göstərdikləri məlumatları cəzaların icrasına nəzarət edən qurumlar yoxlayır və məlumatlarda göstərilənlər təsdiqini tapdığı təqdirdə müvafiq addımlar atılır:** "Əgər doğrudan da belə şey varsa, günahkarlar cəzalandırılır. Qeyd edim ki, əli qandallı, rezin dəyənək və digər vasitələr var ki, onların tətbiqinə qanunla icazə verilir. Xüsusi vasitələr tətbiq olunursa, dərhal aktlaşdırılmalıdır. Aktlaşdırılmırsa, bu artıq qanun pozuntusudur".

**Xidmət rəisi deyib ki, redaksiyamıza müraciət edən məhkumların yaxınlarının dedikləri da araşdırılacaq.**

Mövzuya qayıdacağıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 158 (6772) 29 iyul 2017



# Gözəl Ququşun uzun gecəsi və uzun günü-gündüzü

**Samir SARI**

**Yeniyetmə idik, davalı kinolardan yavaş-yavaş eşq-məhəbbət filmlərinə transfer edən vaxtlarımız idi. Əsasən hind kinolarına baxırdıq, orda da qız və oğlan gah motosikletdə şütüyüb gedirdilər, gah da güllük-gülüstanlıqda əl-ələ tutub qaçır, yamacda-filanda oxuya-oxuya yumbalanırdılar.**

Elə bir romantik mühitdə ikən bir gün Bakıdan gələn məhəlləli tələbələr öz aralarında danışdılar ki, hind filmləri boş şeydir, İran filmləri daha həyatidir, məsələn, bu saat şəhərdə bir kino gedir, adı "Uzun gecə"dir, müsibət şeydir.

Tələbə gənclərin danışığından belə anladıq ki, bu, elə-belə film deyil, indiki terminlərlə desək, adı kimi, özü də erotik filmdir. Guya hər şeyi göstərirlər.

Kinoaktrisa Ququşun adını ilk dəfə onda eşitdik. Tələbə gənclər danışırdılar ki, kopaqqızı dünya gözəlidir.

Onun həm də müğənni olduğunu bir müddət sonra bildik. O zamanlar "Səkinə dayqızı, lay-lay" adlı bir mahnı toylarda hit olmuşdu. Deyirdilər ki, bunu iranlı müğənni Ququş oxuyub, bizimkilər də ondan götürüb. Mahnının sözləri və melodiyası eləydi ki, heç kim onu İran mahnısı saymırdı, bir toyda azı 50 dəfə çalınırdı, camaat da qol götürüb oynayırdı *(deyim ki, o mahnı hələ də toylarda çalınır, unudulub getməyib).*

Bir-iki il keçdi, "Uzun gecə"yə, gözəl Ququşa baxdıq. Gördük ki, deyilmişcən varmış. Ququşun gözəlliyinə söz yox idi. O dövrün ən gözəl qadını məhz o cür görünür, o cür geyinirdi. Necə deyərlər, 10 nömrə, 5 ulduz bir xanım idi. Allah tərəfi, rolunu da gözəl, ürəkdən oynamışdı. Hərçənd o filmdə heç də hər şeyi göstərmirdilər. Belə də...

İntəhası, o filmdən sonra biz oturub-durub düşünürdük ki, gənc və xəstə Babayla göldə uzun bir gecə keçirən, o cür açıq-saçıq rol oynayan qızı kim alar. Heç demə, xanımı almaq istəyənlər çox imiş və alırmışlar. Hətta şah Pəhləvi də onun pərəstişkarıymış.

O vaxtlar bizi, şagirdləri Arazboyu kəndlərə pambıq toplanışına aparırdılar. Yük maşınlarının banında hırılda-şa-hırıldaşa gedərkən Arazın o tayından görünən İrana baxırdıq. Bir dəfə kimsə dedi ki, ora baxın, sanki orda həyat yoxdur, geridə qalmış yerdir. Onda yuxarı sinif uşaqlarından biri ona cavab verdi ki, yox, elə deyil, Ququşun kinolarını görməmisənmi, çox qabağa gediblər.

Sonra şah devrildi, Xomeyni gəldi, Ququşdan xəbər çıxmadı. Gah dedilər, onu tutublar, gah "asacaqlar" dedilər. Günahı xalqın balalarının tərbiyəsini pozmağıymış. İnsafən, Ququş elə Arazın bu tayındaca xeyli gəncin tərbiyəsini pozmuşdu, alışa-alışa gəzirdilər.

Uzun illərdən sonra bilindi ki, artıq o gözəl Ququş İrandan canını qurtarıb və Amerikaya gedib.

Bizimlə həmyaşıd insanlar onu çox sevirdilər və arzulayırdılar ki, bir gün o, Bakıya gəlib konsert versin. Amma olmadı. Belə bir həqiqət ortaya çıxdı ki, Ququşun axırıncı əri ermənidir.

Bu, bizim üçün vətənə, millətə xəyanət demək idi. Onun əri ermənidisə, demək, Bakıya yolu bağlanmışdı.

İndi 40-45 il əvvəlin gözəl Ququşu Yerevanda, ərinin ata yurdunda konsert verəcək.

Bu, yenə bizim üçün faciəvi xəbərdir. Çünki Ququşun ata yurdu Şuşa erməni işğalındadır və bu, onun vecinə deyil.

Ququşun atasının şuşalı olmasını mən onun öz dilindən eşitmişəm, bir dəfə milli televiziyalarımızın hansınasa müsahibə vermişdi, orda dilə gətirmişdi. Heç əsl adı Ququş da deyilmiş, Faiqə Atəşin imiş.

Amma adın, təxəllüsün məsələyə dəxli yoxdur, əsas odur ki, Ququş özünü bizdən saymırmış, iranlı, fars bilirmiş, ona görə də Yerevanda konsert verməsində qəbahət bir şey görmürmüş.

Ta neynəmək olar. Zorla "yox, sən Ququşsan, bizdənsən, azərbaycanlısan" deyəcək halımız yoxdur. Həm də nə xeyri var ki?

Bu günlərdə tələbə vaxtı filmlərdə gördüyü Ququşdan yanıq-yanıq danışan kəndçilərimdən birini gördüm, saçı-saqqalı ağarmış, qarın bağlamış, necə deyərlər, günü keçib ixtiyarlaşmış bir kişidir. Ququş isə hələ də səhnədədir və hələ də, gənc görünür.

Ququşun nəinki gecəsi, hətta günü-gündüzü də uzun çəkdi.

# Elçibəy Mixail Saakaşviliyə nümunə göstərildi

## Əvəz Həsənov: "Saakaşvili prezidentlik müddəti bitdikdən sonra ölkəni tərk etməsəydi..."

**Gürcüstanın sabiq prezidenti, Ukraynanın Odessa vilayətinin eks-qubernatoru Mixail Saakaşvili Ukrayna vətəndaşlığından çıxarıldı. Ukrayna prezidenti Petro Poroşenko Mixail Saakaşvilinin vətəndaşlıqdan çıxarılması ilə bağlı fərman imzalayıb. Saakaşvili ilə bağlı materiallar Ukrayna Baş Prokurorluğuna göndərilib.**

Mixail Saakaşvili Poroşenkonun bu addımından dərhal sonra Ukraynanı tərk edib və ABŞ-a gedib.

Gürcüstanda isə Mixail Saakaşviliyə xeyli vaxtdır cinayət işi açılıb və keçmiş prezidentin vətənə dönüşünün qarşısı bu şəkildə alınıb. Bəxti heç yerdə gətirməyən Saakaşvilinin bundan sonrakı taleyi, harada yaşayacağı hələ ki bəlli deyil.

**Humanitar Tədqiqatlar Cəmiyyətinin rəhbəri Əvəz Həsənovun fikrincə, böyük ehtimalla ABŞ bu dəfə Mixail Saakaşvilini Kanadaya göndərəcək:** "Mixail Saakaşvilini vaxtilə ABŞ-dan çıxarmaq lazım idi. Ukrayna prezidenti Poroşenko ABŞ-ın sözünü yerə salmadı və ona Ukrayna vətəndaşlığını verdi. Sonra isə qubernatorluğuna belə şərait yaratdılar. Poroşenko Saakaşviliyə vəzifə verdi ki, ABŞ-ın xoşuna getsin. Sonra gördü ki, onunla bacara bilməyəcək, Saakaşvilinin reytinqi artır. Ona görə də Poroşenko onu vəzifədən çıxardı. Saakaşvili isə dayanmadı, aktiv siyasətə baş vurdu. Keçmiş prezident Ukraynada siyasi partiya yaratmaq istəyəndə Poroşenko başa düşdü ki, ABŞ Saakaşvilinin əli ilə Ukraynada tarana hazırlaşır. Ona görə də qorxunun təsiri altında onu vətəndaşlıqdan məhrum etdi. İndi ABŞ Saakaşvilini ən yaxşı halda Kanadaya göndərə biləcək. Kanadanın baş naziri Castin Trüdo ən sözə baxan adam təsiri bağışlayır. Avropa ilə ABŞ-ın münasibətləri korlanır artıq. Ona görə də Saakaşvilinin hansısa Avropa ölkəsinə göndərilməsi ehtimalı azdır. Artıq ABŞ Poroşenkodan narazıdır. Poroşenko hakimiyyətdə bərkiyəndən sonra öz biznesini qarışdırdı hakimiyyətə və indi özünü Ukraynanın sahibi kimi görür. Trampın da ona ciddi rəğbəti olmadığından, birbaşa ABŞ-ın diktəsi ilə oynamaq istəmir".





**Əvəz Həsənov onu da qeyd etdi ki, Mixail Saakaşvilinin prezidentlik müddəti bitdikdən sonra ölkəni tərk etməsi, Gürcüstan vətəndaşlığından imtinası yanlış addım olub:** "Onun indiki halda yalnız "siyasi qaçqın" statusu almaq şansı olacaq. O, əgər Gürcüstanda qalsaydı, seçkiləri uduzmasına baxmayaraq sonrakı mərhələdə ən güclü müxalifət olacaqdı. Vaxtilə rəhmətlik Əbülfəz Elçibəy Kələkiyə getməsəydi, Ayaz Mütəllibov kimi ölkədən qaçsaydı, yenidən siyasətə qayıtmağına heç bir şansı olmayacaqdı. Lakin o, ölkəni tərk etmədi və lazım olan anda Bakıya qayıdaraq siyasi proseslərdə canlanma yaratdı. Sadəcə, Elçibəyə ömür imkan vermədi ki, öz gücünü bir daha siyasətdə sınaya bilsin. Millətini sevən prezidentlər mandat aldığı ölkəni ona görə tərk etmir ki, xalqdan alınan mandat onun bütün həyatı boyu ən böyük təminat və ehtiramdır. Əks halda, o, ölkədən qaçanda və yaxud tərk edəndə, onu siyasi mühacir həyatı gözləyir. İndi Saakaşvilinin mühacir həyatı başlayacaq".

❑ **Etibar SEYİDAĞA**

# Rusiya-ABŞ qarşıdurması: Bakı uduşda

## İsgəndər Həmidov: "Sanksiyalar artdıqca, Rusiyanın keçmiş SSRİ respublikalarına təzyiqi artır"

## Elşən Mustafayev: "Qarabağ məsələsinin həlli Rusiyanın daxili və xarici problemlərlə üz-üzə qalmasından keçir"



**Rusiya-ABŞ münasibətlərində yenidən gərginlik yaranıb. Rusiyaya qarşı Qərbin yeni sanksiyalar qəbul etməsi, əsasən də ABŞ-ın qəbul etdiyi sanksiyalar qarşıdurmanı dərinləşdirməkdədir. Məlumdur ki, hər iki böyük dövlətin Azərbaycanda və Ermənistanda böyük maraqları var. Bəs ABŞ-Rusiya qarşıdurmasının dərinləşməsi Qarabağ məsələsinə nə vəd edir? Bu qarşıdurma Bakının, yoxsa İrəvanın xeyrinədir?**

**Politoloq Elşən Mustafayev** öncə bildirdi ki, Qarabağ problemini yaradan da, onun həllinə imkan verməyən də Rusiyadır. Bu problemi Azərbaycan üzərində təsir mexanizmi kimi daim saxlamaq da Rusiyanın istəyidir. Azərbaycan bu problemi sayılı günlər ərzində həll etmək iqtidarındadır. Amma Rusiya faktoru bu zaman böyük təhlükəyə çevrilə bilər: "Ona görə 25 ildir ki, bizi yalançı danışıqlar oyununa qoşublar. Qarabağ məsələsinin həll yolu Rusiyanın problemə, xüsusilə regiona diqqətinin azalmasından, bunun üçün isə onun zəifləməsindən, daxili və xarici problemlərlə üz-üzə qalmasından keçir. ABŞ-Rusiya qarşıdurmasının dərinləşməsi bu aspektdən Azərbaycanın problemin həllini tezləşdirməsinə kömək edə bilər. Söhbət Rusiyaya qarşı hər hansı nifrətdən və ya kindən getmir. Bu məsələdə ABŞ bizim qonşumuz olsaydı və ya Qarabağla bağlı eyni münasibət sərgiləsəydi, sözsüz bu qarşıdurmada ABŞ-ın zəifləməsini istərdik. Bu gün isə biz hər hansı hərbi əməliyyatlara başlasaq, ABŞ okeanın o tayından gəlib bizə hərbi müdaxilə etməyəcək. Rusiya isə edəcək və bunu açıq şəkildə bəyan edib. Bütün bunları nəzərə alaraq hesab edirəm ki, bu qarşıdurmanın güclənməsi və ABŞ-ın üstünlüyü az, ya çox yalnız Azərbaycanın xeyrinə vəziyyəti dəyişə bilər, Ermənistanın yox. O da o halda ki, yaranmış situasiyadan zamanında, heç kimlə məsləhətləşmədən, buna haqqı olan dövlət kimi istifadə edilsin".

**Azərbaycan Milliyyətçi Demokrat Partiyasının sədri İsgəndər Həmidov isə bildirdi ki, ABŞ-Rusiya qarşıdurmasının sanksiyalardan o tərəfə dərinləşməsi gözlənilmir. Sanksiyalar isə 2014-cü ildən Rusiyaya tətbiq olunur və bu, Rusiyanı durdurmur. Sanksiyalar artdıqca Rusiyanın Cənubi Qafqaza, keçmiş SSRİ respublikalarına müdaxiləsi, təzyiqi artır:** "Rusiya son 10 gündə bütün dünyanın gözü qarşısında heç nəyə məhəl qoymadan Gürcüstanın Ermənistana yaxın bir sıra ərazilərinə hərbi qüvvə yeritdi və ərazini ələ keçirdi. Bakı-Supsa neft ixracı kəmərinin bir hissəsini də ələ keçirmiş oldular. Vəziyyət bu dərəcədə gərgindir və Azərbaycanla Gürcüstan faktiki olaraq işğal təhlükəsi qarşısındadırlar. Bu gün Gürcüstan ərazilərinə qoşun yeridən və qarşısı alınmayan Rusiya, sabah Azərbaycana qarşı da bunu edər. Rusiyanın Ermənistanla birgə qoşun yaratmaq qərarı isə vəziyyəti bir qədər ağırlaşdırır və Qarabağ məsələsində Azərbaycanı çox böyük problemlə üz-üzə qoya bilər. Azərbaycan hökumətinin xarici siyasəti uğurlu qurulsaydı, ölkəmiz meydanda tək qalmazdı".

❑ **Etibar SEYİDAĞA**

# "Sübh yuxudan duranda ilk əlimi atdığım saz olur"

## 60 yaşlı Zəlimxan Məmmədli: "Mənim tək qazanc yerim stomatologiyadır"

**"Baxış bucağı"**

**Bir neçə gün əvvəl "Borçalı" İctimai Cəmiyyətinin sədri Zəlimxan Məmmədlinin 60 yaşı tamam oldu. Milli azadlıq hərəkatının fəallarından olan, son illər isə rəhbərlik etdiyi təşkilatın fəaliyyətinə və sevimli stomatoloq peşəsinə daha çox zaman ayıran yubilyarla görüşüb bu yaşdakı düşüncələrini bölüşməsini xahiş etdik. Mətbuata hər zaman açıq olan Zəlimxan bəyin "Yeni Müsavat"a müsahibəsini təqdim edirik:**



***- Zəlimxan bəy, sosial şəbəkələrdən izləmək imkanımız oldu, baxdıq ki, yubileyinizi dar çərçivədə, təvazökarcasına qeyd etdiniz. Ancaq orada sizin düşərgə yoldaşlarınızı, partiyadaşlarınızı, uzun illər birgə yol gəldiyiniz insanları görmədik. Yubileyin davamı olacaq, yoxsa elə bununla kifayətləndiniz?***

- Ömür bir qədəh şərbətdir, içdin, qurtardı. Onu şirin də edə bilərsən, qədəhi salıb sındıra da bilərsən, içdikcə özündən başqalarına zövq də verərsən və ya əlinizdən alarlar, yarı yolda qalarsan. Biz şərbəti dada-dada yola davamdayıq. Təbii, millətimə, elimə, dostlarıma, müəllimlərimə hesabat vermək tələbatım var. Sanki məndən o qədəhin vəziyyətini soranlar var. İnşallah, bir kitab üzərində işləyirəm. Borçalının son dönəm tarixinə aiddir. İnşallah, dava dostlarımla, könül dostlarımla birlikdə o kitabın təqdimatı bəhanəsi ilə bir arada olmaq niyyətim var. Allah qismət eləsin! Ümumiyyətlə isə dəbdəbədən qaçmağa çalışmışam. Fikirləşmişəm ki, bir doğum, bir də axirətə gediş günlərimiz var. Onu da el-oba qeyd edir.

***- Borçalıda, Qardabani rayonunun Kosalı kəndində anadan olmusunuz. Heç şübhəsiz, yubiley yaşınızı öz doğma yurdunuzda da qeyd etmək istərdiniz. Amma təəssüf ki, Sınıq Körpüdən o tərəfə yollar üzünüzə bağlıdır. Sizcə, bu qadağanın ömrü nə qədər çəkəcək?***

- Həyat mürəkkəbliklərlə dolu, zəngin olur. Rahat, kef edə-edə dövlət qurub, el-obaya sahiblənə bilməzsən. Dəyərlər üçün mübarizə aparmalısan. Bu yolda həqiqət olmalısan ki, ötkəm olasan, başını dik tutasan, alnı açıq, üzü ağ yaşayasan. Qadağalar, məhrumiyyətlər mübarizənin naxışları, ilmələridir. İnşallah, Gürcüstan ilmələri də çözüləcək, elimlə qovuşacağam, həm də Xankəndində ad günü keçirmək iddiam da gerçəkləşəcək. Üç gün tez, beş gün gec, əzəl-axır dünya bizim olacaq.

***- İnşallah. Tibb İnstitutunun stomatologiya fakültəsi, Qərb Universitetinin Beynəlxalq siyasət və iqtisadiyyat fakültəsi, az qala, 40 ildir davam edən stomatoloji sahə, Xətai rayon icra başçısı, Azərbaycan Sambo Federasiyasının prezidenti və vitse-prezidenti, xalq hərəkatı... Bir-birinə heç də yaxın olmayan peşələr, sahələr. Özünüzə bunların daha çox hansını doğma sayırsınız?***

- İnsan və həqiqət birlikdə çox güclüdür. İnancımda insanın potensial resursu indi müşahidə etdiyimizdən qat-qat çoxdur. İnsan digər canlılardan şüuru, yaradıcılığı ilə güclüdür. Həqiqət isə Allaha yaxınlaşmağın və qovuşmağın ən yaxın yoludur. Bu iki keyfiyyət birləşəndə güclüsən, çünki həm uca insan, həm də həqiqətsən. Allah səni hökmən himayə edəcək. Bu inanc məni hər zaman önə aparır. Keçmişi təftiş etməyi, eşələməyi xoşlamıram. Keçmişi soyuq başla təhlil edib, bugünkü fəaliyyətim üçün nəticə hasil etməyi xoşlayıram. Hənanın yeri olmadığı halda tariximizə, tarixi şəxsiyyətlərimizə həqarət və onu ictimailəşdirmək isə nadanlıqdır. Sabah mənə futbol federasiyasını da həvalə etsələr, inamım var ki, ən qısa zamanda Avropada sayılan komanda qura bilərəm. Və ya sabah diaspora və ya təhsil naziri olsam, yenə uğur sonluğu qaçılmaz olar. Mənim üçün əl qoyduğun işə könül vermək, fədakarlıq, təmənnasızlıq, ən əsası isə ruhun diriliyi çox önəmlidir. Qalan şeylər detallardır. Odur ki, əl qoyduğun, könül verdiyin iş doğmadır. Təbii ki, Azərbaycan adlı qos-qocaman bir məmləkəti, onun uğrunda mübarizə daha yaxın görünür. Çünki daha gözəl gələcəyimizin açan buradadır.

***- Zəlimxan bəy, siz 1957-ci ilin 17 iyulunda anadan olmusunuz. Həmin gün, amma 470 il əvvəl Şah İsmayıl Xətai dünyaya göz açıb. Maraqlısı odur ki, icra başçısı işlədiyiniz zaman siz məhz Şah İsmayıla abidə qoydunuz. Bir əlaqə varmı?***

**""Şaumyan" adının ləğvi və rayonun Xətai rayonu adlandırılması ideyasının müəlliflərindən biri də mənəm"**

- O Allahın işidi. Görünür, onun yolunu getmək mənim qismətimdədir. "Şaumyan" adının ləğvi və rayonun Xətai rayonu adlandırılması ideyasının müəlliflərindən biri də mənəm. Uzun və çox maraqlı mübarizə mərhələsi idi. Fikrim belə idi ki, qəhrəmanlıq tariximizi əks etdirən heykəllər şəhərimizi bəzəməlidir. Xətai, Babək və Koroğlunun abidələrini Xətai rayonunda qoymaq proqram olaraq təsdiq olundu. Şah İsmayıl Xətai dövlətçilik tariximizin ən şərəfli şəxsiyyətlərindəndir. Abidəni həm də şəhərimizə gələn hər kəsin görməsi üçün aeroport yolunun üstünə qoymağı doğru saydıq. Biz abidəni qoyandan sonra ovaxtkı müxalifət qəzetlərində hətta yazılar dərc etdirdilər ki, Zəlimxan dövlət büdcəsindən vəsait xərcləyərək öz şəklini Xətai adı ilə millətə sırıyır. Bunu söhbətimizdə o vaxtkı prokuror dedi ki, bu heykəl sənə yaman oxşayır. Dedim oxşamalıdı da, o, mənim doğma ulu babamdı. Gerçəkdən, ata tərəfdən bizim Xətai nəslindən olmağımız gerçəklikdir.

***- Adətən yaşın müəyyən çağında siyasət adamları memuar yazmağa üstünlük verirlər. Sizin yaşınız elə çox olmasa da, yəqin kifayət qədər xatirələriniz var. Hakimiyyətdə olduğunuz dönəmdən, rəhmətlik Əbülfəz Elçibəyin Kələki günlərindən, Türkiyədə müalicə aldığı dönəmdən yazmaq üçün xeyli material var. Yazmağa həvəs yoxdur, yoxsa gündəlik qayğılar vaxt ayırmağa imkan vermir?***

- Gündəlik işimin əhəmiyyətli bir hissəsi milli məsələlərlə bağlıdır. Elə bir kitab nəşr olunub. Onun ideya müəllifi, işçi qrupu, müəllifi, redaktoru, naşiri ailə üzvlərimdi - yoldaşım, oğlum və iki qızım. 600 səhifəyə yaxın bir kitabdır. Dediyiniz istiqamətdə düşüncələrim var. Amma qurduğumuz bu Azərbaycanı daha təhlükəsiz və daha qüdrətli, bütöv hala gətirmək əsas vəzifələrimizdəndi. Bu istiqamətdə, konkret xalq hərəkatı ilə bağlı xeyli işləmişəm də. İnşallah, yazacağam. Mənim bir deyimim var: Allahım, məni yorulma hissindən hifz elə! "Yorulmuşam" deyən adamları sevmirəm. Bu ifadəni heç zaman işlətməmişəm.

***- Maraqlıdır, stomatoloq peşəsi bu həyatda sizə daha çox qazanc gətirib, icra başçısı postu, yoxsa siyasət?***

- Mənim tək qazanc yerim stomatologiyadır. İnsanlarımıza sevə-sevə xidmət edirəm, onlar isə könüldən uşağımın azuqəsini verirlər. Bundan çox qürurluyam. İcra başçısı olduğum zaman maddi cəhətdən ən çətin dönəmim olub. Axı biz milli, rüşvətsiz, qanunun şah olduğu dövlət qurmaq istəyirdik. Federasiya prezidenti dönəmində qalib olan idmançıya hədiyyə olaraq bir şey tapmayanda evdə olan cehizliklərdən də qıyırdım. Ailəm də bu davranışıma vərdişlidir.

***- Bəs "Borçalı" Cəmiyyətinin başında dayanmaq sizə nə qazandırdı? Gürcüstana, doğma kəndinizə yolunuzun kəsilməsindən əlavə?***

- "Borçalı" Cəmiyyətinin sədri kimi də qazancımın bir hissəsi cəmiyyətin işinin qurulmasına yönəlib. Hesab edirəm ki, halal çörək milyonlardan qat-qat qiymətlidir.



***- Yəqin könül istərdi bu yay günündə Borçalıda, Kosalı kəndində olasınız. Amma nəinki siz sərbəst gediş-gəlişdən məhrum edildiniz, hətta Elat tədbirləri də qadağan olundu...***

- Mübarizə həm də çətinlikdir, məhrumiyyətdir. Bu postda bəzi xəstə zehniyyətin diktəsi ilə davransaydım, indi millət vəkili də olardım, maddi cəhətdən də daha dolğun təmin olunardım. Amma urvatsız, şəxsiyyətsiz olardım. O, mənim intiharım ola bilərdi. Çətin yolu seçdim. 2009-cu ildən bu yana Azərbaycan və bütövlükdə türk dünyası Borçalı həqiqətlərini bildi. Bu istiqamətdə çoxlu layihələr həyata keçirdik, müxtəlif sahələr üzrə proqramlar hazırlayıb müvafiq qurumlara təqdim etdik. İctimai qurumun hüquqi durumuna uyğun vəzifələri hesab edirəm ki, artıqlaması ilə yerinə yetirdik. Elat bayramı isə artıq unikal bir birlik, qardaşlıq məkanına çevrilib. Çox məmnunam ki, Cənubi Qafqazda analoqu olmayan bir layihənin ideya müəllifi və təşkilatçısıyam. Rəhbərlik etdiyim təşkilat isə heç kimin qarşısında gözükölgəli olmadan bir yol xəritəsi bəlirləyib. Bu xəritə etnik və dini ayrımçılığın Qafqazda toxumunu kəsməyə hesablanan yoldur. Elimə girişimə yasaq Azərbaycanın dişsizliyinin nəticəsidir. Həm də işimizə prinsipial yanaşmanın təzahürü, Gürcüstanda bizim varlığımızı, dik duruşumuzu sinirə bilməyən zehniyyətin varlığının təsdiqidir. Narahat deyiləm. Bu qadağalar hökmən bir işıqlı sabah deməkdir. Hind filosofunun bir sözü var: "Həqiqət elə bir şeydir ki, onu döydükcə onun toxumu bütün bəşəriyyətə yayılacaq". Həqiqət olmağımız bu qapının hökmən açılacağını diktə edir. Axı böyük faciələrimiz var. Zəngəzura, Goycəyə, Dərələyəzə, bütövlükdə Qərbi Azərbaycana, hətta Qarabağa gedə bilmirik. Prezident də oralara ayaq basa bilmir. Biz yurdlarımıza sahiblənməliyik. Ölkə ərazisində yağı düşmən at oynadırsa, biz namusdan uca səslə danışa bilmərik. Biz ərazi bütövlüyümüzün təmininə, Borçalı kimi uzaq ellərimizin göz bəbəyi kimi qorunmasına mənəvi səfərbər olmalıyıq. Baş verənlər Zəlimxanın və ya "Borçalı" Cəmiyyətinin problemi deyil. Baş verənlər hər birimizə dəyən qara daşdır. Bu qara daşı layiq olan başlara vurmaq bizim görəvdir. Yoxsa uşaq-muşağı salırlar Zəlimxanı təftiş etməyə. Olmaz!

***- Yeri gəlmişkən, dollar-manat münasibətlərindəki kəskin dəyişmə bütün sahələrə təsir edib, sözsüz ki, sizin də sahəyə. Bildiyimə görə, dişlərin təmiri məsələsində "yerli istehsal" deyilən nəsə yoxdur. Qiymətlərinizə necə, təsir edibmi devalvasiya? Ən ucuz və bahalı dişlər arasında fərq nə qədərdir?***

- Stomatologiya digər sahələr kimi inkişafdadır. Ən mürəkkəb texnologiyalar, yenilikləri tətbiq etməyi xoşlayıram. Maliyyə bazarında baş verən anormallıqlar bizdən də yan keçməyib. Materialların, avadanlıqların qiyməti ciddi şəkildə qalxıb. İnsanlarımızın maddi durumu isə kifayət qədər çətinləşib. Bu da təbii ki, bizim gəlirimizin nəzərəçarpacaq dərəcədə azalmasına səbəb olub. İri çaplı, qaynar qazan kimi qaynayan bir siyasi fiqur ayrı-ayrı zamanlarda qəfil "artıq inqilabi şərait yetişmişdir" bəyanatlarında qazlananda, mən daha praqmatik yanaşaraq xəstələrimin durumu ilə onu təkzib edirdim. Bu gün gerçəkdən devalvasiya ağır sonluğa sürətlə yaxınlaşmaqdadır. Qiymətlərsə keyfiyyətli material və keyfiyyətli xidmətə bağlı məsələdir.

***- Düzdür, siyasətdən tam çəkilməmisiniz, amma aktivliyiniz də yüksək deyil. Böyük siyasətə dönüşünüz, ortaya böyük iddialar qoymağınız, məsələn, prezident seçkilərində iştirakınız nə vaxtsa mümkündürmü?***

- Ruhum diridir, şükür. Hər şey mümkündür. Qəbir evinə qədər doğru bildiyimiz yoldayıq, zamanın hökmündə qismətdirsə, niyə də olmasın? Hər şeydən öncə qüvvələr arasında salam-kəlamı, ədəb-ərkanı düzəltmək lazımdır.

***- Bəy, bildiyimə görə, yaxşı rəqs etməyi bacardığınız kimi, sazı köksünüzə basıb ifa etməyiniz də var. Hansı hava ürəyinizcə alınır? Kimdən öyrənmisiniz sazla ünsiyyət qurmağı?***

- Rəqs hər zaman alınan deyil. Ruhuma uyğun məclis və ruhumu oynadan havalara qol götürüb oynamağım var. El havalarını çox xoşlayaram. Sazı türk millətinin ruhunun maddiləşən forması hesab edirəm. Saz evdə müqəddəsdir. Uşaqlarım sazla böyüyüb. Bəhrəsi layiqli vətəndaş kimi başımızı uca etmələridir. İlk dəfə sazımı köklənməsi üçün rəhmətlik aşıq Aslan Kosalıya müraciət etdim. Tələbə vaxtı əsasən gitarada ifa etmişəm. V kursda isə ustad Xudunun bağladığı sazı almışam. Ağır havaları, bir də qəhrəmanlıq havalarını xoşlayıram. "Ruhani", "Məmmədbağırı", "Dilqəmi", "Mansırı" və s. havaları çox sevirəm. Sübh yuxudan duranda ilk əlimi atdığım saz olur. İfamın gözəlliyi də ruhani məsələdir. Onu qanan olmayanda heç vaxt çala bilmirəm. Saz da qananı, qanacaqlını xoşlayır. Hər bir evimizdə qoy saz olsun, kefimiz də həmişə saz olsun! Ustad yanında ifa etmərəm. Rəhmətlik atam Adil kişinin saza vurğunluğu sazı mənə sevdirib...

*Söhbətimizin sonunda məlum oldu ki, artıq istirahətə gedir, özü demişkən, Azərbaycanı gəzmək istəyir. İş otağının qapısının ağzında ayrılanda isə dəhlizdəki gül-çiçəkləri göstərib "bura da bizim bağçamızdır" söylədi. Hələ bu bağçanın bir parasını da həyətdə yaradıb. Bu cür yaradıcı insandır bizim 60 yaşlı gənc həkim-siyasətçi-idmançı Zəlimxan bəy. Bir daha təbrik edirik, bəy!*

❑ **Elşad PAŞASOY**
❑ **FOTO: "YM"**

# Yuvacıq



Zamin HACI
zaminhaci@gmail.com

**Son illərimizin inkişaflı, analoqsuz, dünya şöhrətli məhkəmə proseslərindən biri - şərti olaraq "Rabitə işi" adlanan proses gurultuyla yekunlaşdı, içərisində Rabitə Nazirliyinin aparat rəhbəri, Bakının telefon müdiri olmaqla, xeyli görkəmli şəxsiyyət zindana salındı. Özü də onlara, fikrimizcə, xeyli ağır cəzalar verildi. 10 il, 11 il, 13 il... 13 il cəza alanlardan biri yanılmıramsa dövlətə vurduğu zərərin 10 milyon manatını da qohum-əqrəbadan yığıb (guya) ödəmişdi. Buna baxmayaraq, məhkəmə amansız oldu. Səbəb nədir? Doğrudanmı bu yoldaşların qulaq asdığı, gizli yazdığı söhbətlər bu dərəcədə ağır olmuşdur? Hər halda, onların tutulma səbəbi kimi cəmiyyətdə bu fikir formalaşıbdır.**

Şərti olaraqsa rabitəçi yoldaşlar dövlət əmlakını talamaqda suçlanırlar. Bu, istər-istəməz məşhur sovet lətifəsini yada salır. İki nəfər türmədə rastlaşırlar. Biri o birindən soruşur nəyə görə tutulub. Deyir, heç nəyə görə 10 il veriblər. O biri deyir, yalan danışma, heç nəyə görə uzağı 5 il verirlər. İndi bizdə də dövlət əmlakını talamaq maddəsinə görə adamları tutmağa başlasaydılar, azadlıqda kimsə qalmazdı. Hətta sərhəd xidmətini türmə idarəsi elan edib respublikanı bütövlükdə islah-əmək koloniyası adlandırmaq yerinə düşərdi *(təxminən elədir, ancaq biz mövzudan uzaqlaşmayaq)*. Bu baxımdan, rabitəçilərə 10-13 il həbs verilməsi bizi şübhələndirir. Bəlkə də onlar xaricdən maliyyələşən ermənipərəst qüvvələr, trotskçi-zinovyevçi ünsürlər, imperialist dairələrin muzdlu nökərləri olmuşdur.

Bütün hallarda ədalət zəfər çalıbdır, qurd quzu ilə otlamağa başlayıbdır və indən belə rabitə işində gül güllü, bülbül bülbülü çağıracaqdır. Poçtalyonlar ancaq şad xəbər çatdıracaq, telefonlara ancaq sevindirici mesajlar gələcəkdir. Yoxsa bir də görürdün mesaj gəldi: "Qadın məsləhətləri bölümü sizin üçün. Myleo.az. Qoşulmaq üçün filan şeyi yığın". Bunu göndərən uzunqulaq bəyəm baxmırmı ki, mesaj, Məşədi İbadın sözü olmasın, kişiyə gedir, yoxsa zənən xeylağına? Ya da görürsən başqa ağıldankəm şirkət səni hər həftə təbrik edir ki, bu həftənin pulsuz abunə qalibi seçildin, filan rəqəmi yazıb SMS göndər, zibilə düş, hər gün konturunu xəbərin olmadan qapazlayaq. Təsəvvür elə, telefon şirkətinin 2-3 milyon abunəçisi var, ancaq hər həftə səni qalib seçirlər. Azərbaycan xalqını idiot sayıb dolamaq buna deyirlər. Bir gün üsyana qalxacağıq. Sonra təzədən oturacağıq. Əsas odur həmin üsyan vaxtı hansısa gicbəsər jurnal bizi "İlin xalqı" elan eləsin. Başqa bir zad, misal üçün, insan kimi yaşayacağımız cəmiyyət qurmaq bizə lazım deyildir.

Hələ bu harasıdır, bir qohum təzəlikcə çoxqatlı binada mənzilini satıb həyət evinə köçmüşdü. Onun həmin evə telefon çəkdirmək əhvalatı əsl lətifə sayılmalıdır, çünki telefon stansiyasından *(bax, o keçmiş müdiri 13 il cəza alan idarə)* ona demişdilər, telefon çəkmək mümkün deyil, çünki... yuvacıq yoxdur. Sən demə, məhəlləyə gələn telefon xətti hansısa bir qutunun içindən keçir. O qutuda isə cəmi 10 yuvacıq varmış. İstəsələr 20, 30, 40 yuvacığı olan qutular da qoya bilərmişlər, ancaq nədənsə balacası qoyulub. Nəticədə indi o əraziyə telefon çəkmək problem imiş.

Bunu hansısa sivil dünyadan gəlmiş əcnəbiyə danışsan, gülər. Deyər 21-ci əsrdə, elektron rabitənin, peyk sistemlərinin inkişaf elədiyi, nə bilim, camaatın uzaq kvazar ulduzuna elektron siqnal göndərdiyi bir vaxtda sizin bədbəxtliyinizə baxın: telefon direyindəki qutuda yuvacığa möhtacsınız. Sizin işiniz ta Allaha qalıbdır.

Bu da bir el əhvalatından götürülübdür. Bir nəfər atın belində, əlində tüfəng, lopatka, odun şələsi gedirmiş. Qarşısına çıxan soruşur, hara gedirsən, deyir, tülkü ovuna gedirəm. Deyir, tüfəngi başa düşdüm, qalanları nədən ötrüdür. Ovçu deyir, tüfəng atacam, dəyməsə, atla qovacağam. Qaçıb yuvaya girsə, odunu yandırıb tüstü verəcəyəm. Belə də çıxmasa lopatka ilə qazıb çıxaracağam. Adam deyir ta denən tülkünün işi Allaha qalıbdır.

İndi söz əlaqədar yuvacıqlarındır.

# Yəhudi nazirin müəmmalı İrəvan səfərinin pərdəarxası

**İsrailin regional əməkdaşlıq naziri Saxi Xaneqbi 3 günlük səfərlə Ermənistandadır. Bu, son böyük bir dönəm üçün İsraildən Ermənistana səfər edən ən yüksək çinli rəsmidir. Artıq yəhudi naziri xarici işlər naziri Edvard Nalbəndyan və parlamentin spikeri Ara Babloyan qəbul edib. Onun prezident Serj Sərkisyanla da görüşü gözlənilirdi.**



# Ermənilərin İsrail arzusu, İran xofu və Bakının basqısı

## Düşmən ölkəni yəhudi dövləti ilə yaxın ilişkilər qurmağa qoymayan üç səbəb; Sərkisyan Tehrana niyə can atır? ABŞ-ın "beyin mərkəzi"ndən erməniləri üzən proqnoz gəldi...

Erməni mənbələrinin məlumatlarından hasil olan ilkin qənaət belədir ki, düşmən tərəf İsraillə münasibətlərdəki bu gəlişmədən xeyli məmnundur. Hərgah, ermənilər eyni zamanda ehtiyatlı bir sevinc içindədirlər. Səbəbinə qayıdacağıq.

***

Bu arada isə Ermənistanın xarici işlər nazirinin müavini Şavarş Köçəryan bildirib ki, "İsrail Azərbaycana ona görə silah satmır ki, o, Ermənistana düşmən münasibətdədir". Musavat.com-un məlumatına görə, bu barədə Köçəryan israilli nazirin işğalçı ölkəyə səfərinə münasibət bildirərkən deyib. Onun iddiasına görə, silah məsələsində Təl-Əviv dəfələrlə öz mövqeyini açıq bəyan edib. "Onlar hamıya, o cümlədən Ermənistana da silah satmağa hazırdır", - deyə o, özünətəsəlli şəklində qeyd edib.

**"Bəs bu yöndə Ermənistan İsraillə hansısa danışıqlar aparıbmı" sualına Köçəryanın cavabı belə olub:** "Bu sual başqa idarəyə aiddir. Bütövlükdə isə Ermənistan və İsrail xalqları arasında ümumi çox şey var. Ancaq problemli məsələlər də mövcuddur".

***

Ş.Köçəryan silah məsələsində axıradək səmimi deyil təbii ki. Ona görə ki, İsrail Azərbaycana silah-sursatı həm də Azərbaycanın ondan ötrü islam dünyasında tutduğu xüsusi yerinə və önəminə görə satır. Rusiyanın ucqar bir quberniyasına çevrilmiş və dünya okeanına çıxışı olmayan, iqtisadi baxımdan maraq kəsb etməyən Ermənistan isə yəhudi dövləti üçün cəlbedici ola bilməz. 2015-ci ildə, saxta soyqırım iddiasının 100-cü ildönümündə də bu, özünü qabarıq şəkildə göstərmişdi. O zaman İsrail İrəvandakı ildönüm tərəninə heç nazir səviyyəsində belə, nümayəndə heyəti göndərməmişdi...

Tərəflər arasında hərbi-texniki əməkdaşlığa gəlincə, İrəvan istəsə də müasir İsrail hərbi sistemlərini ala bilməz. Çünki: **1.** Buna maddi imkanları yoxdur. **2.** Rusiya imkan verməz. Üçüncü səbəb də var: İranın İsrailə ənənəvi münasibəti.

İş ondadır ki, hazırda işğalçı ölkə İrandan daha çox ehtiyat edir, nəinki Azərbaycandan. Çünki Ermənistan Moskva ilə yanaşı Tehrandan da çox güclü şəkildə asılıdır. Söhbət öncəliklə geosiyasi asılılıqdan gedir. Aydındır ki, İran da müsəlman Türkiyəsi kimi təcavüzkara münasibət bəsləsə, onunla sərhədləri qapalı saxlasa, Ermənistan qısa zamanda boğular, tezliklə sülhə gələr. Tehran çoxdan işğalçı üçün "nəfəslik" rolundadır və bu "nəfəsliyi" İsrailin əvəz eləməsi qeyri-mümkündür.

Yeri gəlmişkən, erməni prezident Serj Sərkisyan prezident Həsən Ruhaninin növbəti andiçmə mərasimində iştirak üçün dəvət alıb və dəvəti dərhal qəbul edib. Səbəb məlumdur: Sərkisyan Ermənistanın "ikinci xilaskarı", həmsərhəd ölkə kimi isə "tək xilaskarı" olan İranın dövlət başçısı ilə daha bir dəfə görüşmək şansını qaçırmaz.

Bəllidir ki, dəvət Azərbaycan prezidenti İlham Əliyevə də gəlib. Lakin şəxsən İlham Əliyevin İrana gedəcəyi məlum deyil. Ola bilsin, Bakıdan Tehrana baş nazirin başçılığı ilə nümayəndə heyəti getsin...

***

Bakı-Təl Əviv münasibətlərinin hazırkı durumuna gəlincə, bu münasibətlər İran faktoruna rəğmən, son illər dinamik inkişaf etməkdədir və təkcə hərbi əməkdaşlıq sferasını əhatə eləmir. İki ölkə arasında digər sahələrdə, o cümlədən energetika sferasında da yaxşı əməkdaşlıq var. Avropaya İsrail qazının nəqli *(Cənub Qaz Dəhlizi, TANAP)* ilə bağlı da tərəflər konstruktiv müzakirələr içindədir.

Bundan əlavə, İsrail Bakı-Ceyhan xətti ilə Azərbaycan neftinin alıcılarından biridir. Yəhudi dövlətində sanballı Azərbaycan lobbisi fəaliyyət göstərir. Azərbaycan İsrail üçün yəhudi icmasının da tam təhlükəsizlikdə yaşadığı azsaylı müasir, tolerant və qabaqcıl, ən əsası, strateji tərəfdaş türk-müsəlman ölkəsidir. Ötən ilin sonlarında baş nazir B.Netanyahunun Bakı səfəri Azərbaycanın bu önəmini bir daha nümayiş etdirdi. Yoxsa ki, Netanyahu Bakıdan Ermənistana gedərdi, Qazaxıstana yox.

Bakı ilə Təl-Əviv arasında yüksək səviyyəli münasibətlərə "Lapşin insidenti" də kölgə sala bilmədi və sala bilməzdi - erməni tərəfi dərindən-qabıqdan çıxsa belə. Sadə səbəbə: çünki Azərbaycan-İsrail münasibətlərinin təməli sağlamdır və üçüncü ölkəyə qarşı yönəlməyib. Ermənilərə isə İsraillə münasibətlər ilk növbədə beynəlxalq yəhudi lobbisinin dəstəyini qazanmaq və İsrailin Azərbaycan və Türkiyə ilə arasını vurmaq üçün lazımdır. Yəni məkrli niyyət güdülməklə, sırf üçüncü ölkəyə qarşı yönəlib.

***

Ermənistanın nicatı və inkişafı təkcə İranla deyil, həm də və ən əvvəl Türkiyə və Azərbaycanla əlaqələri normala salmaqdan keçir. Söz düşmüşkən, yaxın on ildə Türkiyə bölgədə əsas regional güc olacaq. Bunu isə biz yox, artıq ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan "Stratfor" analitik qrupu deyir.

**Qrupun yaydığı son hesabatdan sitat:** "Türkiyə indi ərəb konfliktləri, Qafqaz və Qara dəniz konfliktləri ilə əhatəlidir. Ankara hələlik Yaxın Şərqdə tam müstəqil siyasət yürütməyə hazır deyil və buna görə də ABŞ-la əməkdaşlıq edəcək. Türklər öz təsir zonalarını Şimali Afrikaya qədər artıracaqlar. Türkiyənin diqqəti təkcə Yaxın Şərqə yönəlməyəcək. Rusiya zəiflədikcə avropalılar Türkiyənin maraq dairəsində olan zonalara gələcəklər. Türkiyə şimal istiqamətində olan iqtisadi və siyasi gücündən yararlanacaq və hətta hərbi gücündən də istifadə edəcək. Avropa Birliyinin dağılması bəzi ölkələrin Şərqə marağını artıra bilər. Bu isə Türkiyəyə özünün Balkanlarda əsas güc olmasına imkan yaradır. Türkiyə yaxın 10 ildə əsas regional gücə çevriləcək".

Amerikalı analitiklərə görə, qarşıdakı dönəmdə Rusiyanın - Ermənistanın 1 nömrəli mütəfiq dövlətin parçalanması da qaçılmaz olacaq, Moskva Qafqaza nəzarət imkanlarını itirəcək.

Bu da işğalçıya bir daha ciddi düşünmək və doğru seçim etmək üçün növbəti xəbərdarlıq mesajı, çatdırış.

❑ **Analitik xidmət**

**"ABŞ-da fəaliyyət göstərən "Stratfor" Analitik Mərkəzi Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) kölgə komandası adlandırılır. Bu da ondan irəli gəlir ki, analitik mərkəzin başda rəhbəri olmaqla əməkdaşlarının bir hissəsi keçmiş kəşfiyyatçılardır. Bu mənada keçmiş SSRİ məkanında "Stratfor"un analizlərinə diqqət yetirilir".**

# Azərbaycanlı ekspert "Stratfor"un tezislərini alt-üst etdi

## "Rusiyanın parçalanması bizə lazım deyil, çünki..."




"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, **politoloq Elxan Şahinoğlu** bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirdi. Son zamanlar qurumun hesabatının mediada geniş müzakirə olunmasına toxunan ekspert dedi ki, Amerikadakı siyasi mərkəzlərin və ekspert dairələrinin "Strafor"a analizlərinə xüsusi diqqət yetirdiyini söyləmək çətindir: "Amerikada daha güclü və tanınmış araşdırma və ekspert rəyləri verən mərkəzləri var ki, Vaşinqton, Konqres, Pentaqon və MKİ bu mərkəzlərin hesabatları ilə daha çox hesablaşır. "Startfor" növbəti analizini yayıb. Həmin analizin bölgə ilə bağlı əsas müddəaları aşağıdakılardır: "Rusiya 2025-ci ilə qədər parçalanacaq"; "ABŞ Türkiyə və Azərbaycanı özünə müttəfiq edərək bu ölkələrə qoşun yeridəcək"; "Rusiya demoqrafik tənəzzülə uğrayacaq".

Araşdırma mərkəzlərinin çalışmalarından biri də proqnozlar verməkdir. Ancaq proqnoz dərin təhlillərə və məntiqi ardıcıllığa əsaslanmalıdır. "Stratfor" proqnoz verməkdə rekord vurur. 2025-ci ilə qədər Rusiya parçalanacağını proqnozlaşdırmaq müəyyən suallar doğurur. Əlbəttə, Rusiyanın regional siyasəti, Gürcüstan və Ukraynanı parçalaması, Krımı işğal etməsi, bütün sərhəd perimetri boyunca separatçıları dəstəkləməsi, Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanda hərbi imkanlarını genişləndirməsi bir çox dövlətin qəzəbinə səbəb olur. Qərbin sanksiyaları Rusiyaya mənfi təsir edir. Buna baxmayaraq, Rusiya bütövlüyünü qorumaq üçün bütün imkanlarını səfərbər edəcək, müharibə yolu ilə olsa belə, parçalanmaya imkan verməyəcək. Bunu uzaq və yaxın tarix də göstərir".

**Qeyd edək ki, bənzər hesabatlar ötən illərdə də yayılıb. Lakin ötən il yayılmış tezislərin yenidən ictimai müzakirəyə çıxarılması diqqət çəkir. E.Şahinoğlu qeyd etdi ki, "Rusiya parçalanacaq" ifadəsi 25 ilə yaxındır səslənir:** "Həmin illərdə Rusiyada siyasi və iqtisadi vəziyyət daha ağır idi. 1990-cı illərdə Çeçenistanda müharibə başlayanda və Tatarıstan Moskvadan daha çox muxtariyyət tələb edən illərdə də Rusiyanın parçalanacağı proqnozları çox idi. Ancaq bu proqnozlar özünü doğrultmadı. Rusiya çətin və müharibə vəziyyətində olsa belə mərkəzdənqaçma meyllərinin qarşısını almağa çalışacaq".

**Politoloq qeyd etdi ki, "Stratfor"in "ABŞ Türkiyə və Azərbaycanı özünə müttəfiq edəcək, qoşun yeridəcək" proqnozu da xeyli suallar doğurur:** "Birincisi, Türkiyə-ABŞ münasibətləri soyuqdur, Vaşinqton Türkiyədə çevrilişə cəhd edən Fətullah Güləni Ankaraya ekstradisiya etmək istəmir. Əlbəttə, Gülən xəstədir və nə vaxtsa canını tapşıracaq. Ancaq bunun dərhal iki ölkə arasındakı münasibətləri normallaşdıracağı anlamına da gəlmir. Amerikanın Avrasiya bölgəsindəki siyasəti, "Yaxın Şərq" layihəsi Ankarada xoş qarşılanmır. Söhbət yalnız Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğandan getmir, qardaş ölkədəki bütün siyasi mərkəzlər Vaşinqtonun siyasətindən narazıdırlar. Yeni Türkiyədə sabah CHP hakimiyyətə gəlsə belə, Türkiyə Amerikanın bölgədəki yaxın müttəfiqinə çevrilməyəcək. İkincisi, Türkiyə Rusiya ilə birgə on milyardlarla dollar həcmində müxtəlif enerji layihələri icra edir. Türkiyənin ABŞ-la bu həcmdə layihələri yoxdur. Bu baxımdan, Rusiyanın parçalanması Türkiyənin maraqlarına cavab vermir. Elə Azərbaycan da Rusiyanın Ermənistana verdiyi dəstəkdən narazı olsa da, şimal qonşusunun dağılmasında maraqlı deyil. Rusiyanın parçalanması Şimali Qafqazın nəzarətdən çıxması və Azərbaycan sərhədində radikalizmin artması deməkdir. Bu, bizə lazım deyil".

**Ekspertə görə, "Stratfor"un "Rusiya demoqrafik tənəzzülə doğru gedir" proqnozu da faktlara söykənmir:** "Bunu bəlkə də illər əvvəl söyləmək olardı. Ancaq son bir neçə ildə Rusiyada ilk dəfə doğulanların sayı ölənlərin sayını üstələyib". **E.Şahinoğlu qeyd etdi ki, rusiyalı tarixçi Oleq Kuznetsov da "Stratfor"un yolu ilə gedir:** "Bəli, bu insan sağ olsun, Moskvada Azərbaycanın haqlı mövqeyini müdafiə edən açıqlamalar verir, Xocalı soyqırımının Dövlət Dumasında tanınması məqsədilə petisiya hazırlayır. Ancaq "Rusiyanın xarici işlər naziri Sergey Lavrov Qarabağ danışıqlarından uzaqlaşdırılıb" ifadəsini səsləndirmək üçün konkret fakta ehtiyac var. Qulağa xoş gəlir, ancaq realdırmı? Bəli, biz Lavrovun ermənipərəst mövqeyindən narazıyıq və mümkündür ki, Soçidə bu məsələni Azərbaycanın dövlət başçısı rusiyalı həmkarının diqqətinə çatdırıb. Ancaq bu, o demək deyil ki, həmin görüşdən dərhal sonra Rusiya prezidenti Lavrovu danışıqlardan uzaqlaşdırdı. Uzaqlaşdırdısa, Qarabağla məşğul olmağı kimə tapşırdı? Uzaqlaşdırdısa, niyə Soçi görüşündən sonra Kremlin atdığı bütün addımlar Azərbaycanın əleyhinədir? Odur ki, məşhur sovet komediya filmində deyildiyi kimi, "elə edək ki, arzularımız imkanlarımızla - reallıqla üst-üstə düşsün".

❑ **Cavid TURAN**

---

**Prezident Tramp divar tikməkdə israrlıdır. Artıq Konqresin Nümayəndələr Palatası 235 lehinə, 192 nəfər əleyhinə olmaqla, ABŞ-la Meksika arasında divarın tikintisinə 1,6 milyard dollar ayrılmasına səs verib. "Divarın tikilməsində məqsəd ölkənin təhlükəsizliyini təmin etməkdir"- rəsmi məlumatda deyilir.**

**Elşad PAŞASOY**



# "Qorxma, qoy onlar səni öldürsün..." və ya Qərbin yeni siyasəti

Diqqət edin, dünyanın superdövləti öz təhlükəsizliyini təmin etməkdən ötrü... "Çin səddi" çəkir. Kimsə deyə bilər sizə nə? Təbii. Deməyəcəyik ki, sən vətəndaşlarının taleyini düşünmə, hasar çəkmə! Çək, amma digər ölkələrin də vətəndaşını, ərazisini düşün, lütfən!

Amma və lakin dünyanın söz sahibi bizim torpaqları işğal etmiş Ermənistana bir dəfə "konkret olaraq rədd ol" deməyib, əksinə, rədd olmaması üçün maliyyə ayırır. Nədir? Azərbaycan xalqı təhlükəsiz yaşamaq haqqına sahib deyilmi? Niyə bizim balaca zəhralar öz yurdunda ermənin gülləsinə tuş gəlməlidir?!

Hasar tikiləndən sonra Amerikadakı 3 milyon qanunsuz miqrant ölkədən deportasiya ediləcək. Yenə etirazımız yoxdur. Ancaq həmin ABŞ Konqresi Azərbaycan ərazisində ordu saxlayan Ermənistana 2018-ci il üçün milyonlar ayırıb. Üstəlik, Suriya qaçqınlarını qəbul etdiyinə görə də işğalçı ölkəyə vəsait vəd olunub! Suriya qaçqınlarının Qarabağa qanunsuz köçürülməsi planına dəstək verir "qanunsuz miqrasiyaya qarşı mübarizə aparan" ABŞ. Təzadı görürsünüzmü?!

Bəzən müxaliflər Azərbaycan hakimiyyətini Rusiya ilə ehtiyatlı münasibətlərinə görə qınayır. İddia olunur ki, Bakı birmənalı şəkildə Qərbə, NATO-ya inteqrasiya qərarını qəbul etsə, xilas olar. Gəlin görək, bu xəttə sadiq olanlar xoşbəxt olubmu?

Gürcüstanı, sonra da Ukraynanı qızışdırıb Rusiyə ilə üz-üzə qoyan, onlara NATO vədi verib qapı arxasında saxlayan kim oldu? Cavab məlumdur. Dedilər "qorxmayın, Rusiyanın üstünə gedin, sizi NATO-ya qəbul edəcəyik", Kiyev və Tiflis bu günəcən gözləyir. Demirəm ki, Avrasiya Birliyinə üzv olaq. Rusiyanın gətirdiyi "xoşbəxtliyi" tarix boyu görmüşük. Amma Qərbi də çox tərifləməyin, lütfən! GUÖAM yaradılmışdı e, indi hardadır? Qərb bu qurumun "fatihəsini" vermədimi? Sahib çıxmadı, istəmədi. PKK-ya, PYD-yə daha ox sahib çıxdılar...

Budur, Rusiya qoşunu Gürcüstanın içərilərinədək irəliləyib, Bakı-Supsa kəmərini nəzarət altına alıb, Ermənistana dəhliz açmağa fürsət gəzir, Qərb deyir "qorxmayın, onsuz da Rusiya 2025-ci ildə parçalanacaq". A kişi, rus ordusu Tiflisin burnunun ucundadır e!

O zaman da eyni münasibət oldu, Gürcüstan Rusiya ilə üz-üzə qaldı, sonra da Saakaşvilini lağa qoydular ki, qorxudan qalstukunu çeynəyir. Bəs bədbəxt Mişa nə etməli idi? Torpağını azad etməyə qərar verdi, əvəzində öz ərazisində iki separatçı dövlət yaradıldı, Qərb də "gəmi gəlir uzaqlardan" mahnısını oxumaqla kifayətləndi.

Eləcə də Ukrayna nümunəsini gördük. O boyda Maydan hərəkatı oldu, Kiyev birmənalı seçim etdi. Əvəzində... Krım əldən getdi, indi də Kreml Donbasda "Malorusiya" dövləti yaradır. Rusiya Gürcüstanı tikə-tikə etmək istəyir, Ermənistanla birgə 120 minlik ordu yaradır, özü də NATO-ya istiqamət götürən Gürcüstanın qulağının dibində, Gürcüstanın içərilərinə doğru günbəgün irəliləyir. Bəs Qərb nə edir? Heç nə!

Bu mərhələdə Qərb nəinki postsovet ölkələrini, hətta postsovet ölkələrinin liderlərini də Rusiyaya satdı. Mixail Saakaşvili nümunəsi göz qabağında. Qərbə inteqrasiya üçün əvvəlcə Gürcüstanda, sonra isə Ukraynada hər şeyindən keçən Mişanı axırda rəsmən "havada" qoydular. Budur, öz ölkəsindən sonra Ukrayna da onu vətəndaşlıqdan məhrum edib. Qərb heç olmasa "qorxma, mən səninləyəm" də demir.

Son illərin təcrübəsi göstərdi ki, Rusiya öz adamlarına dərhal sahib çıxır, elə öz ölkələrinə də. Ukraynanın eks-prezidenti Yanukoviçi inqilabçıların əlindən xilas edib aparan Kreml oldu *(hələ Vəzirov, Mütəllibov nümunələrini bir kənara qoyuruq)*. Amma bu gün Saakaşvilinin başına məhz Putinə görə oyunlar açılır, Ağ Ev uzaqdan baxıb gülümsəyir.

Tam mümkündür ki, 1920-ci ildəki işğal planı başqa formada işlənib hazırlanıb, bu dəfə "Gürcüstandan Ermənistana kömək" adı ilə... Bu, təkcə Azərbaycanı təhdid deyil, həm də Qərbin maraqlarına, enerji layihələrinə sarsıdıcı zərbədir... Lakin ABŞ başda olmaqla, Qərb sükut edir. Hətta Gürcüstanın rusmeyilli deyilən prezidenti Georgi Marqvelaşvili də narahatdır, Qərb isə narahat deyil. Deyəsən, doğrudan da Qafqaz daxil, postsovet məkanı Rusiyanın payına düşüb... ABŞ olsa-olsa Baltikyanıya təhlükə yarananda hərəkətə keçir.

Bu yerdə bir lətifəni xatırladım. Deyir qədimlərdə qan düşmənçiliyinin ən pik həddi qarşı tərəfin əziz qonağını öldürmək olub. Bir gün birinin çox əziz qonağının gəldiyini eşidən digər tərəf silahlanıb evə soxulur və qanlı-qanlı qonağa baxır. Qonağın özünü itirdiyini görən ev sahibi qayıdır ki, "əziz qardaş, qorxma, qoy onlar səni öldürsün. Gör mən onun neçə qonağını öldürəcəyəm".

Bax, bu lətifədəki ev sahibi Qərbin yeni siyasətinə çox bənzəyir... ABŞ deyir qoy Rusiya sizi öldürsün, işğal etsin, görün mən ona qarşı neçə sanksiya qərarı qəbul edəcəyəm...

YENİ MÜSAVAT
N 158 (6772) 29 iyul 2017



# Türmə xəstəlikləri - ölkəmizdə və dünyada

## Məhbuslar təkcə xəstəlikdən həyatlarını itirmirlər...

**Həbsxana - cinayət törətmiş və ya qanunsuz hərəkət törətməkdə təqsirli bilinən şəxslərin saxlandığı yerdir. Bütün dünyada olduğu kimi, Azərbaycanda çoxlu sayda həbsxana, təcridxana və minlərlə məhbus var. Məhbəsdə ölüm isə qaçılmaz olur.**

Rəsmilər qeyd edir ki, ölkəmizdəki həbsxanalarda ölüm səbəblərinin əksəriyyəti sırf xəstəliklərlə bağlıdır. Onlar əsasən vərəm, Hepatit C, QİÇS, ürək-damar, xərçəng və yaşlılıqla bağlı xəstəliklər.

Ölkəmizdə vərəm, ağciyər xəstəliyi məhbuslar arasında daha çox yayılıb. 1995-ci ilədək bu xəstəlikdən çoxsaylı məhkumlar dünyasını dəyişirdi, hətta bu, adi bir hala çevrilmişdi. Lakin görülən tədbirlərin nəticəsi olaraq son illərdə bu xəstəliyə tutulma dəfələrlə azalmağa başlayıb.

Hepatit C-dən, QİÇS virusu xəstəlikləri ilə bağlı məsələ isə heç də ürəkaçan deyil. Bu cür yoluxucu xəstəliyə tutulanların sayı kifayət qədərdir. Həmin xəstəliyə tutulan xəstələri izolasiya etmək və müalicəsini aparmaq lazımdır. Lakin bu cür xəstə məhkumlara qarşı laqeydlik olduğu barədə məlumatlar eşidirik. Nəticədə yoluxucu olduğundan xəstələrin də sayı artmağa başlayır. Rəsmi məlumata görə, təkcə ötən il ərzində 140 məhbus həbsxanada dünyasını dəyişib. Çox güman ki, dünyasını dəyişənlər arasında bu cür xəstəliyin daşıyıcıları da olub.

Şəraitsizlik, zəif qidalanma, laqeydlik və sairə bu xəstəliklərin artmasının əsas səbəblərindən biri kimi göstərilir. Qeyd edək ki, artıq sağalmaz xəstəliklərə tutulan məhkumlar həkimlərin rəyi ilə cəzadan azad oluna bilir. Yəni qanunvericilik buna imkan verir.

Dünyanın elə həbsxanaları var ki, onlar öz televiziyaları, kitabxanaları, idman zalları, yeməkxanaları ilə məşhurdur. Lakin bəziləri də "cəhənnəm" statusunu qazanıb, hansı ki, orada da ölkəmizdə olduğu kimi, məhbuslar daha çox qazandıqları xəstəliklər ucbatından dünyasını dəyişirlər.

Məsələn, Rusiyanın paytaxtı Moskvada yerləşən "Butırka" adlı həbsxanada QİÇS və vərəm xəstəliklərinin tüğyan etdiyi bildirilir. Hər il məhz xəstəlikdən yüzlərlə məhbus dünyasını dəyişir. Burada kameralarda demək olar ki, gigiyenik sanitar qaydaları yoxdur. Həbsxana həm də qəddarlığı ilə məşhurdur. Məlumata görə, məhbuslar hansısa problemə etiraz edərsə, müdiriyyət tərəfindən zorakılığa məruz qalırlar.

Keniyada yerləşən Kimiti həbsxanası da bu cür həbsxanaların siyahısındadır. Acınacaqlı həyat və yaşayış şəraitindən, qidasızlıqdan məhbusların əksəriyyəti vəba, taun, xora xəstəliklərinə tutulur. Və bu artıq adi hal kimi qarşılanır.

Qvineyada yerləşən Blek Biş həbsxanası da qəddarlığı ilə məşhurdur. Məhbuslar tez-tez xroniki xəstəliklərdən dünyasını dəyişir. Qəddarlıq və şiddət, qidasızlıq, siçovul hücumları burdakı məhbusların qəniminə çevrilib.

Gürcüstandakı Qldani həbsxanasında da hər il yüzlərlə məhbus epidemiyalardan həlak olur. Ən çox yayılan xəstəlik isə vərəmdir. Bu həbsxanada məhbuslar vəhşicəsinə fiziki, psixoloji və seksual təzyiqlərə məruz qalırlar.

Cənubi Amerikanın La Sabaneta həbsxanasında isə xəstəliklər ağır səviyyədədir. Məlumata görə, burada tibb müəssisəsi, ümumiyyətlə, yoxdur.

❑ **Xalidə GƏRAY**
❑ **Musavat.com**

# 6 yaşlı Ramilənin ölümü: işgəncə, yoxsa...

## Təqsirləndirilən şəxs: "Uşağı anası döyürdü"

**6 yaşlı ögey qızını öldürməkdə təqsirləndirilən şəxsin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Təqsirləndirilən şəxs sərbəst ifadə verib və özünü günahkar bilmədiyini deyib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində Ağsu rayon sakini 1982-ci il təvəllüdlü Elnar Hacıyevin cinayət işi üzrə məhkəmə prosesinə hakim Tamila Nəsrullayeva sədrlik edib.

E.Hacıyev birlikdə qeyri-rəsmi ər-arvad münasibətində yaşadığı Samirə Yarıyevayanın 6 yaşlı qızı Ramilə Abdulxaliqovanın ölümünə görə həbs olunub. İttihama görə, uşağın ölümünə səbəb də bu olub ki, Hacıyevin ayaqlarını yuduğu ləyəni uşaq aparan zaman suyu dağıdıb. Hacıyev 6 yaşlı uşağın qulaqlarında tutaraq başını divara çırpıb. Ramilə baş nahiyyəsindən aldığı xəsarətlərdən dünyasını dəyişib.

Elnar Hacıyev Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır xəsarət yetirmə; ölümə səbəb olduqda) maddəsi ilə ittiham edilir. Onun digər cinayət əməli isə qonşusu Tural Hüseynli ilə dava edərək ona xəsarət yetirməsidir. E.Hacıyevə bu əməlinə görə Cinayət Məcəlləsinin 127-ci (qəsdən sağlamlığa yüngül xəsarət vurma) maddəsi ilə ittiham verilib.

İyulun 28-də baş tutan məhkəmə prosesində hakim bildirib ki, iş üzrə zərərçəkmiş və şahidlərin hamısı dindirilib. Təqsirləndirilən şəxs Elnar Hacıyev özünü təqsirli bilmədiyi üçün onun dindirilməsi şahidlərin ifadəsindən sonraya saxlanılıb. Hakim E.Hacıyevə ifadə verməyi təklif edib. E.Hacıyev sərbəst ifadəsində ona qarşı irəli sürülmüş ittihamla özünü təqsirli bilmədiyini deyib.

Əvvəlcə qonşusu ilə aralarında baş verən davadan danışan E.Hacıyev deyib ki, həmin hadisə çoxdan baş verib və artıq qonşusu ilə aralarında barışıq olub. E.Hacıyev qeyd edib ki, qonşusu ondan şikayətçi deyil.

**6 yaşlı Ramilənin ölümündən danışan E.Hacıyev söyləyib ki, baş verən hadisə ilə əlaqəsi olmayıb, uşaq həyətdəki pilləkandan ayağı sürüşərək yıxılıb:** "Mən özümü qətiyyən təqsirli bilmirəm. Axı bu əməli mən törətməmişəm. Əgər cinayət törətsəydim səsimi çıxarmazdım. Cəzamı alıb, gedib içəridə yatardım. Amma mən günahsız yerə burdayam. Düzdür, səhvim var. Amma uşağın ölümünə mən səbəb olmamışam. Razıyam ki, mənə ən ağır cəza verilsin. Amma bu işə görə yox. Bu yazılanları mən eləməmişəm".

**E.Hacıyev mərhum Ramilənin onun ayağını yumaq üçün su gətirməsi, sonra suyu apararkən yerə tökməsi və buna görə də azyaşlını döyməsi ilə bağlı ittihamda yazılanla da razılaşmayıb. O deyib ki, belə bir hadisə olmayıb:** "Heç 6 yaşlı uşaq həmin ləyəndə su gətirə bilərdi? Onu qaldıra bilərdi? Hadisə günü mənim öz qızım Həcər də evdə olub. Xahiş edirəm o, yenidən gətirilsin və məhkəmədə dindirilsin. O deyir ki, atam günahsızdır. Ramilə yıxılaraq başından xəsarət alıb. Keçmiş qayınanam uşağı öyrədib ki, məni həbsdə saxlasınlar. Uşaq məcburi şəkildə həmin ifadəni verib ki, guya Ramilə mənim ayağımı yumağa su gətirib".

**Dövlət ittihamçısı Samir Abdinovun suallarını cavablandıran E.Hacıyev ekspertizanın rəyinə əsasən mərhum Ramilənin bədənindəki zorakılıq və xəsarət izləri haqda da danışıb. O, nə öz qızını, nə də ki, mərhumu döydüyünü deyib:** "Mən heç birinə əl qaldırmamışam. Mən öz uşaqlarımın ağlamasına belə razı olmamışam. Həmçinin Ramilənin də. Ramiləni anası Samirə döyürdü. Özü də bunu məhkəmədə etiraf elədi. Bir dəfə qızım Həcər mənə zəng elədi ki, "ata, tez gəl. Samirə uşağını döyür". Mən də evə getdim. Ondan uşağı niyə döydüyünü soruşdum. Samirə dedi ki, "bezmişəm, vaxtı gəlsəydi, böyüsəydi, bunu da aparıb internata qoyardım". Samirə qızım Həcəri də vurmuşdu. Yıxılıb qolu əzilmişdi".

Xatırladaq ki, mərhum 6 yaşlı Ramilənin doğma anası Samirə Yarıyeva da həbs edilib. Ona Cinayət Məcəlləsinin 133-cü (işgəncə vermə) maddəsi ilə ittiham irəli sürülüb. İstintaq belə nəticəyə gəlib ki, Samirə mütəmadi olaraq, uşağını döyüb, meyitin üzərində aşkarlanmış xəsarətlərin bir neçəsini də hadisədən əvvəl öz anası yetirib.

Dövlət ittihamçısı Elnar Hacıyevdən Samirə Yarıyeva ilə aralarındakı münasibətlər barədə də soruşub.

**E.Hacıyev S.Yarıyevanı hadisədən 9 ay əvvəl tanıdığını və ər-arvad münasibətlərində olmadığını deyib:** "Sadəcə, bizdə qalırdı. Ər-arvad kimi yaşamamışıq. O özü işləyirdi, uşaqlarına baxırdı".

E.Hacıyev və Samirə Yarıyeva hadisədən sonra uşağı dəfn etmək üçün rayona aparıblar. S.Yarıyeva polisə zəng edərək qızını naməlum avtomobilin vuraraq qaçdığını deyib. Amma polis əməkdaşları tərəfindən aparılan araşdırmadan sonra həqiqət üzə çıxıb. Dövlət ittihamçısı bu planı kimin qurması barədə E.Hacıyevə sual verib.

**Hacıyev deyib ki, uşaq pilləkandan yıxılarkən başından xəsarət alıb:** "Heç qan da yox idi. Uşağın özündən getdiyini gördüm. Bibimə zəng edib nə edəcəyimi soruşdum. Dedi ki, spirt alıb masaj edim. Mən də qızımı Ramilənin yanında qoyub aptekə qaçdım. Spirt alıb gəldim. Masaj elədik, amma xeyri olmadı. Samirə də evə gəldi. Artıq Ramilə dünyasını dəyişmişdi. Samirə dedi ki, kəndə aparıb dəfn edək".

**Dövlət ittihamçısı:** "Siz niyə təcili yardıma zəng etmədiniz?"

**E.Hacıyev:** "Özümü itirmişdim. Mən elə ən böyük səhvi burada etdim ki, zəng eləmədim".

**Dövlət ittihamçısı:** "Əgər sizin günahınız yox idisə və hadisə, sadəcə, qızın yıxılması səbəbindən baş vermişdisə, ananız niyə elə canfəşanlıq göstərərək Samirəyə kömək edirdi?"

**E.Hacıyev:** "Samirə özü deyirdi ki, "qurban olum, kömək edin, rayona aparım".



Samirə deyirdi ki, əgər həkimə aparsaq, uşağı yaracaqlar. Buna görə də istəmədi. Həm də onun pulu yox idi. Biz də həyəcanlı idik. İlk dəfə idi bir insanın ölümünə şahidlik edirdik və nə edəcəyimizi bilmirdik. Samirə mənə dedi ki, "problem yoxdur, narahat olma". Həm Samirə özü də deyir ki, bu işdə mənim günahım yoxdur".

**Sonda bir daha Ramilənin yıxılaraq xəsarət aldığını və buna görə də dünyasını dəyişdiyini deyən E.Hacıyev məhkəmədən ədalətli qərar gözlədiyini deyib:** "Həmin pilləkəndən mənim qızım da yıxılıb. Anam da yıxılıb, qolu qırılıb. İnanıram ki, işə ədalətli baxacaqsınız. Mənim bu ittihamla əlaqəm yoxdur. Uşağın anası da deyir ki, məni nahaq yerə tutublar".

**Daha sonra hakim məhkəmə istintaqının başa çatdığını elan edib. Amma Elnar Hacıyevin vəkili buna etiraz edib və məhkəməyə sübut təqdim etmək istədiyini deyib. O, məhkəməyə disk təqdim etmək istədiyini deyib:** "Burada hadisə günü evdə olan Elnar Hacıyevin qızı Həcərin çıxışı var. O, hadisənin necə baş verdiyini danışır. Atasının günahsız olduğunu deyir".

Ancaq hakim vəkilin etirazını qəbul etməyib və bildirib ki, məhkəmədə sübutların təqdim edilməsi mərhələsi başa çatıb. Hakim onu da bildirib ki, mərhum Ramilənin atası Məhəmməd Abdulaxaliqov məhkəməyə yazılı şəkildə müraciət edərək E.Hacıyevin qanunla nəzərdə tutulmuş ən ağır cəza ilə cəzalandırılmasını istəyib.

**Məhkəmədə dövlət ittihamçısı çıxış üçü vaxt istəyib.**

**Məhkəmənin növbəti iclası avqustun 1-nə təyin edilib.**

❑ **İlkin MURADOV**



# Azərbaycan hərbi parkını gücləndirir - Qarabağ prioriteti

## Sülh danışıqlarında durğunluq Bakını güc amilini daim öndə saxlamaq zorunda qoyur; Azərbaycan yeni silahlar almaqla yanaşı, öz silah sənayesini də gücləndirir; **"Stratfor":** "Qarabağda yeni müharibə riski heç vaxt olmadığı qədər yüksəkdir..."

**Hərbi əməliyyatlar üçün ən əlverişli olan yay mövsümü davam eləsə də, hələ ki genişmiqyaslı toqquşmaları önləmək mümkün olur. Bu isə heç də sülh danışıqlarında hansısa ciddi dönüşlə bağlı deyil. Belə bir dönüş, irəliləyiş əfsuslar olsun ki, yoxdur. Paradoksal olanı də elə budur. Yəni əslində böyük toqquşma hər an baş verə bilər.**

Siyasi və hərbi ekspertlər də konkret bir tarix deyə bilməsələr belə, Dağlıq Qarabağ münaqişəsi zonasında yeni müharibə riskini olduqca böyük qiymətləndirirlər. Yaranmış durumda ərazisinin 20%-i işğal altında olan Azərbaycanın özünün hərbi qüdrətini artırmaq və işğalçıya qarşı informasiya-təbliğat savaşını gücləndirməkdən savayı yolu qalmır.

***

Bu arada Azərbaycanın dost-müttəfiq Pakistandan hərbi təyyarələr aldığı haqda xəbər yayılıb (virtualaz.org). Xəbərə görə, Pakistanın aviasiya marşalı Ərşad Malik və Azərbaycan Hərbi Hava Qüvvələrinin komandanı, general-leytenant Ramiz Tahirov Azərbaycan Hərbi Hava Qüvvələrinə on ədəd "Super Muşak" təyyarəsinin çatdırılması haqqında razılaşma imzalayıblar.

Bu barədə Pakistan Müdafiə Nazirliyinin bugünkü press-relizinə istinadən "Samaa" TV kanalı xəbər yayıb. Müqavilə, təyyarələrin çatdırılmasından başqa, həmçinin texniki dəstəyi, pilotların praktiki hazırlığına köməyi də nəzərdə tutur. **"Bu tarixi razılaşma iki qardaş ölkə arasında ikitərəfli əlaqələrin daha da möhkəmlənməsinə imkan yaradacaq"** - Pakistan Müdafiə Nazirliyinin press-relizində belə deyilir.

"Super Muşak" - Pakistan Aeronautical Complex-in layihəsini 1980-ci illərdə əldə etdiyi Saab şirkətinin MFI-17 təyyarəsinin təkmilləşdirilmiş versiyasıdır. 260 at gücünə malik mühərriklə təchiz edilmiş MFI-395 "Super Muşak"ın hazırlanmasına 1995-ci ildə başlanılıb. Təyyarə ilk uçuşunu 1996-cı ilin avqustunda yerinə yetirib. Pakistanın Hərbi Hava Qüvvələrinin silahlandırılmasına isə 2001-ci ilin mayında qəbul edilib. Maşının praktik tavanı 6,705 m (22,000 fut), maksimal surəti 268 km/saat, uçuş məsafəsi 814 kilometrdir.

"Super Muşak" Səudiyyə Ərəbistanı, Oman, İran və Cənubi Afrika Silahlı Qüvvələrinin silahlanma sisteminə də daxildir. 2016-cı ilin başlanğıcında Nigeriya, iyulunda isə Qətər də həmin təyyarələrin partiyasını alıblar. Bundan başqa, Türkiyənin Hərbi Hava Qüvvələrinə 52 ədəd "Super Muşak" təyyarəsinin çatdırılması haqda razılaşma imzalanıb.

***

Onu da qeyd edək ki, yeganə nüvə müttəfiqimiz kimi Pakistan Dağlıq Qarabağ məsələsində prinsipial mövqeyini bu gün də saxlayır. İslamabad nəinki Türkiyə kimi işğalçı Ermənistanla heç bir siyasi-diplomatik əlaqə qurmayıb, ümumiyyətlə, Ermənistanı dövlət kimi tanımır. Bundan əlavə, Pakistan dövləti dəfələrlə bəyan edib ki, işğalçı Ermənistana qarşı müharibədə Azərbaycanın öz ərazi bütövlüyünü təmin eləmək üçün istənilən dəstəyi verməyə, o cümlədən hərbi köməyi göstərməyə hazırdır.

Azərbaycanla Pakistan arasında əlaqələr, o sırada həmçinin hərbi əməkdaşlıq xüsusən də son illər dinamik inkişaf etməkdədir. Ən yüksək səviyyədə *(baş nazir, prezidentlər)* reallaşan qarşılıqlı səfərlər bunun bariz sübutu hesab oluna bilər. İki dost dövlət arasında hərbi-texniki əməkdaşlıq və silah ticarətinin həcmi də ilbəil genişlənməkdədir.

Yeri gəlmişkən, Pakistan Azərbaycana yeni hərbi attaşe göndərib. Bu haqda müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Səid Xan Mohmand ilə görüşündə məlum olub.

Musavat.com Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, iki ölkə arasında münasibətlərin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətinin xüsusi vurğulandığı görüşdə hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində də əməkdaşlığın uğurla davam etdiyi qeyd olunub.

Görüşdə hərbi əməkdaşlığın hər iki ölkənin maraqlarına cavab verdiyi əsas gətirilərək bu istiqamətdə səylərin daha da artırılmasının zəruriliyi vacib hesab edilib. Hərbi-texniki əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələri yüksək qiymətləndirən tərəflər Pakistandan əldə edilən "Super Muşak" təyyarələrinin Azərbaycanın hərbi pilotlarının döyüş vərdişlərinin təkmilləşdirilməsində mühüm rol oynayacağını qeyd ediblər.

Sonra səfir ölkəmizdə fəaliyyət müddəti başa çatmış hərbi attaşe polkovnik Syed İmran Əli və bu vəzifəyə yeni təyin olunan polkovnik Nadem Yaqub Çaudrini müdafiə nazirinə təqdim edib. General-polkovnik Z.Həsənov Azərbaycanda fəaliyyət müddətində ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində göstərdiyi səylərə görə polkovnik Syed İmran Əliyə təşəkkürünü bildirib, ona gələcək işlərində uğurlar arzulayıb.

Yeni hərbi attaşeni Azərbaycanda hərbi-diplomatik missiyasına başlaması münasibətilə təbrik edən nazir ona ölkələrimizin silahlı qüvvələri arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində fəaliyyətində uğurlar arzulayıb.

***

Qeyd edək ki, Azərbaycan Pakistan, İsrail, Türkiyə kimi dost-tərəfdaş ölkələrdən yeni silahlar almaqla yanaşı, öz silah sənayesini də gücləndirməkdədir. Bakı üçün, hərbi qüdrətimiz üçün bu amilin xüsusi önəmi var. Ən azı ona görə ki, sülh danışıqlarının perspektivi görünmür. Qarabağ danışıqları belə görünür, iki əsas vasitəçi dövlətlər - ABŞ və Rusiya arşında münasibətlərin getdikcə daha da gərginləşməsi üzündən bir az da dalana girməkdədir.




Deməқ, işğal problemi yaşayan Azərbaycan üçün hərb amili əsas prioritet kimi önə qalır. Siyasi müşahidəçilərə görə isə, nə qədər ki, ATƏT-in Minsk Qrupu həmsədrləri, xüsusən də Rusiya Qarabağ probleminin həllinə real maraq göstərməyib, Azərbaycan və Ermənistan prezidentlərinin payızda nəzərdə tutulan görüşü də nəticəsiz başa çatacaq. O zaman sülh (müharibə) perspektivinə heç bir təsiri olmayacaq daha bir görüş xətrinə görüş keçirməyə, danışıqlar xətrinə danışıq aparmağa dəyərmi?

***

**"Bu gün Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağın statusu və ərazilərin qaytarılması məsələsində ziddiyətlər o qədə dərindir ki, üfüqdə heç bir nizamlanma əlamətləri görünmür".** Bu barədə ABŞ-ın özəl kəşfiyyat araşdırmaları mərkəzi "Stratfor"un məruzəsində bildirilir.

"Stratfor" təhlilçiləri qeyd edirlər ki, Fransa bu yaxınlarda Əliyevlə Sərkisyan arasında sammit təşkil etməyə çalışıb, lakin bu səylər nəticə verməyib (virtualaz.org). "Rusiya sülh prosesinin irəliləməsində maraqlıdır, bir şərtlə ki, ona regionda öz qoşunlarını yerləşdirməyə icazə versinlər" - məruzədə deyilir.

Amerikalı təhlilçilərə görə, əgər Azərbaycan ötən ilin aprelində olduğu kimi, qısamüddətli hərbi əməliyyatlarda ərazilərin bir hissəsini geri qaytarmağa cəhd eləsə, Moskva regiona qoşun yeridə bilər. Əks halda, Rusiyanın məqsədi münaqişənin nizamlanması halında regionda özünün sülhməramlı qüvvələrinin yerləşdirilməsi məsələsini qoymaqdır.

"Stratfor" bildirir ki, Azərbaycan münaqişənin nizamlanmasından ümidini üzüb silahlanmanı davam etdirir, öz arsenalını gücləndirir. Rusiya və İsraildən milyardlarla dollarlıq silah alır. Ermənistan isə münaqişəyə görə getdikcə daha çox təcrid vəziyyətinə düşür.

**"Dördgünlük müharibə Rusiyanın dəstəyinin hüdudlarını göstərdi, İrəvanın Moskvanın dəstəyi məsələsində ümidləri doğrulmadı. Azərbaycan regionda Rusiyanın əsas tərəfdaşı olmaq məsələsində Ermənistanı sıxışdırdıqca İrəvanda narahatlıq artır ki, Moskva Dağlıq Qarabağ üzərində nəzarəti Bakıya verə bilər. Buna cavab olaraq Ermənistan özünün xarici siyasətini şaxələndirmək üzərində işləyir, Avropa İttifaqı ilə sıx əlaqələr yaratmağa çalışır. NATO ilə əməkdaşlığı genişləndirir"** - məruzədə göstərilir.

"Stratfor" təhlilçiləri hesab edirlər ki, ötən ilin aprel döyüşlərindən sonra Dağlıq Qarabağ münaqişəsi ətrafında çox şey dəyişib: **"Ermənilər növbəti qəfil həmlə ehtimalına qarşı təmas xətti boyu hərbi texnika yerləşdirib. ABŞ-da yeni administrasiya hakimiyyətə gəlib və onun Rusiyaya dair mövqeyindən Qarabağ danışıqlarında çox şey asılı olacaq. Qarabağda yeni müharibə riski heç vaxt olmadığı qədər yüksəkdir. Bununla belə, Azərbaycan Rusiyadan dəstək almasa ərazilərini geri almaq üçün ötən ilin aprelindəkinə bənzər hərbi əməliyyatlara cəhd etmək istəmir. Lakin məsələ ondadır ki, Bakı başqa yanaşmanı sınaqdan keçirmək istərdimi - məsələn, hərbi təyyarələri də tətbiq etməklə Dağlıq Qarabağ uğrunda irimiqyaslı hərbi əməliyyatlara başlamaq kimi. Bu halda isə Ermənistan özünün raket sistemlərini tətbiq edəcək, Sərkisyan "Qarabağı qorumaq üçün tərəddüd etmədən bütün arsenalı işə salacağını"** deyib" - məruzədə deyilir.

Göründüyü kimi, Qarabağ danışıqlarında tezliklə irəliləyiş ehtimalının olmadığını və müharibə riskinin böyük olduğunu amerikalı təhlilçilər də etiraf edirlər...



# İŞİD-in tərkibində döyüşən azərbaycanlıların çoxu geri qayıtmaya bilər

## Təhlükəsizlik eksperti deyir ki...

**3 il əvvəl İraqın ikinci böyük şəhəri Mosulu işğal etməklə dünyanın diqqətini öz üzərinə çəkən İŞİD hazırda İraq və Suriyada sürətlə mövqelərini itirir. Görünən odur ki, Astana razılaşmasına əsasən İŞİD-in Suriyada məhv edilməsi sürətlə davam edir.**

Ancaq indi gündəmin əsas sualı İŞİD-in bundan sonrakı taleyidir. Bundan sonra, yəni Suriya və İraqda nəzarət etdiyi əraziləri itirdikdən sonra İŞİD hansı taktikanı seçəcək? Mütəxəssislər iki əsas variant üzərində dayanır. Əslində hər iki variantın davam etdirilməsi də realdır. Birinci variant İŞİD-in yer altına" çəkilməsidir. Digər terror qruplaşmaları kimi İŞİD-in də ən son çarəsi "yer altına çəkilmək" olacaq. Yəni qruplaşma torpaqlarını itirdikdən sonra gizli fəaliyyətə keçə, daha əvvəl "əl-Qaidə" terror təşkilatının həyata keçirdiyi taktikadan istifadə edərək varlığını terror hücumları ilə davam etdirə bilər. Bu isə o deməkdir ki, dünyanın istənilən ölkəsi İŞİD-in potensial hədəfinə çevrilə bilər.

Bunun üçün İŞİD-in hətta günü bu gün böyük canlı qüvvəsi var. Bəzi mənbələrə görə, İraq və Suriyada 30, hətta 40 minə yaxın İŞİD üzvü əcnəbi terrorçunun olduğu ehtimal edilir. Bununla da İŞİD həm adıçəkilən ölkələrdə, həm də digər ölkələrdə gizli terror-təxribat fəaliyyətləri həyata keçirə bilər.

İkinci variant isə İraq və Suriyada mövcud olan sistemi başqa bir ölkəyə daşımaqdır. Məlum olduğu kimi, hazırda Yəməndə, Nigeriyada, Şimali Afrika - Misir və Liviyada, o cümlədən Filippində İŞİD-ə beyət edən silahlı terror təşkilatları var ki, hələ də aktivdir. Ancaq indi çox da dilə gətirilməyən, amma dünya ölkələrini narahat edən ən əsas məqamlardan biri İŞİD üzvlərinin dünyaya səpələnməsi təhlükəsidir.

Bu yaxınlarda MDB antiterror mərkəzi də bu barədə xəbərdarlıq edib. İŞİD üzvlərinin yenidən öz vətənlərinə geri qayıtması özləri ilə birlikdə vətənlərinə terror və savaş riski də gətirir deməkdir. Son aylarda Rusiyada və Avropada artan terror hücumlarının bir səbəbi də budur. Çünki geri dönən İŞİD üzvləri hətta qruplaşma ilə bağlarını qoparsalar belə *(bu ehtimal nə qədər zəif olsa belə)* onların terror və cinayət riski daşıyıcıları olması faktdır. Bu səbəbdən artıq Rusiya və Avropa ölkələri kimi birbaşa İŞİD-lə mübarizə cəbhəsində yer alan ölkələr həyəcan təbili çalırlar.

Azərbaycan artıq 3 ildir ki, bu təhlükəyə qarşı preventiv addımlar atmağa çalışır. Qanunlar sərtləşdirilib, geri qayıdan *(təsbit edilən)* İŞİD üzvləri yaxalanaraq mühakiməyə cəlb olunur. Ancaq risk hələ də güclüdür. Çünki burada və Yaxın Şərqdə nə qədər azərbaycanlının bu təşkilata qoşulduğu dəqiq bilinmir.

**Təhlükəsizlik eksperti Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan hökumətinin geri qayıdan terrorçularla bağlı mövqeyi açıqdır. Ekspert deyir ki, geri qayıdanlar həbs olunur:** "Məlumdur ki, bu şəxslər Azərbaycana qayıdarlarsa, Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən, daha doğrusu, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratmada iştiraka görə cinayət məsuliyyətinə cəlb ediləcəklər. Bundan başqa, öz qanunsuz fəaliyyətlərini davam etdirmək məqsədləri olsa, artıq müxtəlif maddələrlə də cinayət işləri açılacaq. Məhz bunu dərk edən həmin şəxslər öz radikal fikirlərindən əl çəkməsələr, təbii ki, məsuliyyət daşıyacaqlar".

**Ancaq eyni zamanda A.Nağıyevin fikrincə, İraqda və Suriyada döyüşmüş azərbaycanlıların hamısının Azərbaycana qayıtması inandırıcı deyil. Ekspertə görə, onların bir çoxu başqa ölkələrə üz tuta bilər:** "Digər məsələ də ondan ibarətdir ki, artıq bu şəxslər tək Suriya və İraqla məhdudlaşmırlar. Məlum olduğu kimi, deməк olar ki, dünyanın bir çox ölkələrində bu şəxslərdən terror və digər cinayətlərdə vasitə kimi istifadə edirlər. Buna görə də onların Azərbaycana qayıtması o qədər də vacib məsələ deyil. Çünki artıq bu şəxslər haqqında müvafiq orqanlar məlumatlıdır. Düşünürəm ki, hüquq-mühafizə və xüsusi xidmət orqanlarının üzərinə böyük məsuliyyət düşür və bu şəxslərin aşkarlanması, qanunsuz fəaliyyətlərinin araşdırılması, leqallaşdırılması və neytrallaşdırılması mühüm bir amildir. Çünki Azərbaycanın şimal sərhədlərində, Rusiyada, Şimali Qafqazda İŞİD-ə beyət edən terror qrupları var, təbii ki, bu da təhlükəsizliyə təhdiddir. Bundan başqa, İŞİD üzvləri və ya tərəfdarları tək Suriyada və İraqda döyüş əməliyyatlarında iştirak etmirlər, onların başqa missiya hətta keçirən tərəfdarları da var".

❑ **Kənan RÖVŞƏNOĞLU**



# Azərbaycanlıların Rusiyada yüksək mövqe tutmamasının əsas səbəbi - dini amil, yoxsa mentalitet?

**Azərbaycanlıların sayının daha çox olduğu xarici ölkə Rusiyadır. Bu ilin yanvar ayına olan statistik məlumata görə, Rusiyada 2 milyondan çox azərbaycanlı yaşayır. Lakin illərdir ki, azərbaycanlılar Rusiya hakimiyyətində, hökumətdə, parlamentində, daxili və xarici siyasətində yetərli səviyyədə təmsil oluna bilmirlər.**

Buna misal olaraq ötən ilin sentyabrında Rusiya Dövlət Dumasına seçkilər olan zaman adəti üzrə yenə də azərbaycanlı deputat seçilmədi. Halbuki sayda azərbaycanlılardan dəfələrlə az olan ermənilər həm Dumada, həm də Rusiyanın daxili və xarici siyasətində daim təmsil olunublar. Rusiyanın hətta xarici işlər naziri Sergey Lavrov (Kələntərov) erməni kökənlidir.

Maraqlıdır, bəs səbəb nədir? Niyə azərbaycanlılar Rusiyada hakim dairələrdə təmsil oluna bilmir?

Bəzi ekspertlər qeyd edir ki, siyasətlə məşğul olmaq üçün strateji maraq olmalıdır. Lakin Rusiyada yaşayan azərbaycanlılar daha çox pul qazanmağa üstünlük verdiklərindən ictimai-siyasi həyatdan uzaqda qalır və yaxud seçkilərə maraq göstərmirlər. Bəzi ekspertlərin sözlərinə görə isə məsələdə dini və psixoloji faktorlar aparıcı rol oynayır.

**Politoloq Elçin Mirzəbəyli bir neçə amilə toxundu:** "Rusiyada yaşayan azərbaycanlıların əksəriyyəti kiçik və orta biznes sahəsində çalışırlar. Bir qayda olaraq siyasi proseslərdən kənarda qalmağa üstünlük verir, ən müxtəlif yollarla öz bizneslərini qorumağa cəhd göstərirlər. Vaxtilə Rusiyada təhsil alan və karyeralarında uğur qazanmaq imkanları olan soydaşlarımızın əhəmiyyətli hissəsi öz vətənlərinə qayıdıb, azsaylı həmvətənlərimiz isə qərb ölkələrinə üz tutublar. Bununla yanaşı, Rusiyada elm, mədəniyyət, təhsil, KİV və digər sahələrdə uğur qazanan azərbaycanlıların sayı da az deyil. Lakin bir qayda olaraq onlar bir-birilərinə daha da irəli getmək üçün dəstək vermirlər, yaxud Rusiyanın rəsmi dairələri çar dövründən qalma ənənələrini bu müstəvidə də davam etdirir, onlara yüksək etimad göstərmirlər. Ruslar Qafqaz və türk xalqlarının psixologiyasına yaxşı bələddirlər. Onlar yaxşı başa düşürlər ki, bu regionda Azərbaycan türklərinin sayı 50 milyondan çoxdur. Və bu xalq əsrlər boyu imperiyalar, dövlətlər yaradıb, nəhəng ərazilərə hökmranlıq edə bilib. Bizi nə qədər əzsələr də dövlətçilik bizim qanımızda, genlərimizdə oturuşub. Əgər hər hansı bir azərbaycanlı öz vətəninin mənafeyini yaşadığı ölkənin maraqlarına qurban verirsə, deməli, onun genlərində problem var. Bu aspektdən Rusiyanın müvafiq institutları hər bir azərbaycanlının potensial lider olmaq imkanlarını yaxşı dəyərləndirir, əksər hallarda yalnız genləri çürük olanları yaxına buraxırlar. Sizə bir hadisə danışım: Sankt-Peterburqda mənimlə eyni vaxta təhsil alan, hazırda Rusiyanın ən məşhur teleradio aparıcılarından, aktyor və şoumenlərindən biri olan Dmitri Naqiyev (Nağıyev) əslən azərbaycanlı olduğunu desə də, soydaşlarını sevmədiyini bildirirdi. Bu haqda onunla bir neçə dəfə söhbətim olmuşdu. Amma zaman keçdi, Dima öz genlərinin təsirini hiss etməyə başladı və indi Azərbaycanı ürəkdən sevən qardaşlarımızdan biridir. Dimanın atası Qulam əslən Cənubi Azərbaycandandır. Valideynləri oradan köç edərək Türkmənistana gəliblər. Qulam *(sonradan adını dəyişib Nikolay qoyublar)* uşaq evində böyüyüb. Amma buna baxmayaraq, nə özü azərbaycanlı olduğunu unudub, nə də övladının unutmasına imkan verib. Bu hadisəni ona görə nəql elədim ki, azərbaycanlıların psixologiyası ilə bağlı bəzi məqamlara aydınlıq gətirim.

O ki qaldı din məsələsinə, din amili rusların həyatında ən sonuncu yerdə dayanır. Ermənilərlə bağlı məsələ ruslar üçün din məsələsi deyil, maraq məsələsidir. Ruslar yüz illər boyu ermənilərin hər cür istifadəyə yararlı olduqlarına, qürursuz, dövlətçilik şüuru olmayan bir toplum kimi qəbul ediblər. Ümumiyyətlə, azərbaycanlıların Rusiyanın siyasi arenasında mövqe sahibi ola bilməmələrinin səbəbləri çoxdur".



**Elçin Mirzəbəyli:**
"Rusiyanın müvafiq institutları hər bir azərbaycanlının potensial lider olmaq imkanlarını yaxşı dəyərləndirir"



**Qabil Hüseynli:**
"Azərbaycanlılar aktiv siyasətdə olmağa bir növ tənbəllik edirlər"

**Politoloq Qabil Hüseynli isə qeyd etdi ki, azərbaycanlılar aktiv siyasətdə olmağa bir növ özləri tənbəllik edir:** "Sözsüz ki, xarici ölkələrdən ən nüfuzlu və dinamik diasporamız Rusiyadadır. Bəzi rəqəmlərə görə, orada 3 milyona yaxın azərbaycanlı yaşayır və işlə məşğuldurlar. Təbii ki, onlar ya Sovet İttifaqındakı cəmiyyətin üzvləri və yaxud müstəqillik dövründə dünyaya gələn insanlardır və onlar Rusiya cəmiyyətində adaptasiya olmaq və cəmiyyətlə qaynayıb-qarışmaq, inteqrasiya etmək prosesində çətinliklərlə üzləşməmişdirlər. Məsələn, Qərbi Avropa ölkələrinə mühacirət edən şəxslərin həmin cəmiyyətə inteqrasiya olunma prosesi müəyyən problemlərlə olur və onların başında dil problemi gəlir. Rusiyada isə azərbaycanlıların böyük əksəriyyəti üçün dil problemi demək olar ki, yox dərəcəsindədir. Lakin belə deyək, Sovet İttifaqı dövründən fərqli olaraq indiki Rusiya cəmiyyətində, xüsusən də yeni rusların formalaşdığı, iqtisadiyyatda və siyasətdə hakim elitaya çevrildiyi bir cəmiyyətdə sözsüz ki, bu cəmiyyətə inteqrasiya etmək məsələsində müəyyən problemlər yaranıb. Məsələn, bu problemlərin əvvəlində xristian olmayanlara qarşı açıq milliyyətçilik təzahürləridir. Ruslar Sovet İttifaqı dövrünə nisbətən tamamilə tanınmaz bir hala düşüb. Yəni əgər həmin dövrdə beynəlmiləl şüur inkişaf edirdisə, hazırda Rusiyada mövcud olan milli ideologiyanın tərkib hissələrində millətçilik, hətta daha yuxarılara, şovinizmə qədər gedib çıxa bilən qatlar var. Bununla bağlı tədqiqatçılar da var ki, Rusiyada radikallaşma çox sürətlə gedir və bu təmayüllər ölkədə milli ideologiyanın aparıcı hissəsinə çevrilib. Belə olan halda əlbəttə ki, digər millətlərə, xüsusən də müsəlman olan ölkələrə münasibət o qədər də yüksək səviyyədə deyil. Məsələn, tutaq ki, Rusiya cəmiyyətində belə bir jarqon var - "qara insanlar". "Qara insan" dedikdə Qafqazın və Orta Asiya ölkələrindən olan insanların hamısını bura daxil edir və bir növ özləri ilə onlar arasında bir səddin mövcud olduğunu iddia etməyə başlayırlar. Belə olan şəraitdə siyasi həyata nüfuz etmək bir qədər çətinləşir. Məsələn, tutaq ki, iş həyatında uğur qazanmış adamın siyasi həyata can atması məsələsi müəyyən psixoloji və açıq formada təzahür edən milliyyətçilik təzahürləri ilə qarşılaşır və onu yarıb keçmək xeyli çətin olur.

Ermənilərin isə bu sarıdan problemləri yoxdur. Qeyd edim ki, azərbaycanlılar aktiv siyasətdə olmağa bir növ tənbəllik edirlər. Amma ermənilər, hətta gürcülərin özləri də bizimkilərdən fərqli olaraq iş həyatındakı uğurlarla yanaşı, siyasi həyatda da uğurlar qazanmağa cəhd edirlər və yaşadıqları yerdə siyasi partiyalara, siyasi cərəyanlara, hərəkatlara qoşulmağa başlayırlar. Bir məqamı da qeyd edim, nədənsə orada olan azərbaycanlıların kriminal aləmlə əlaqəsi daha çox özünü büruzə verir. Kriminallaşmış dəstələr öz qüvvəsini daha çox azərbaycanlıların üzərində sınaqdan keçirir və nəticə etibarı ilə kriminallaşmış dəstə elə hakimiyyət orqanlarının müəyyən strukturlarının əlində bütün azərbaycanlılara təhlil etmək üçün alətə çevirirlər. Bu çox təəssüflendirici faktdır ki, özümüzünkülərdən özümüzünkülərə qarşı istifadə etmək Rusiyanın daxili sferasında istifadə edilən metodlardan biridir".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 158 (6772) 29 iyul 2017

# Ölümlə çarpışan balaca Poladı həyatda saxlayaq!




UROLOJİ MƏRKƏZ
KAMAL ABDULLAYEVİN KLİNİKASI
STASİONAR XƏSTƏNİN TİBBİ TARİXÇƏSİNDƏN ÇIXARIŞ

**5 sentyabr 2012-ci il təvəllüdlü Babayev Polad Cəmil oğlu kəskin leykoz (qan xərçəngi) xəstəliyindən əziyyət çəkir. Bundan əlavə, ona anadangəlmə sağ böyrəyin 3-cü dərəcəli hidronefroz diaqnozu qoyulub.**

9 aylığında, 2012-ci ildə onun böyrəyi üzərində plastik əməliyyat keçirilib. Ümumi halsızlıq, iştahasızlıq və yüksək hərarət nəticəsində 8 iyul 2017-ci il tarixində aidiyyəti müayinələr olunaraq, sağ böyrəyi çıxarılıb. Lakin əməliyyatdan sonra səhhəti yaxşılaşmayıb və təzədən müayinə olunub. 19 iyul 2017-ci il tarixində Azərbaycan Respublikası Səhiyyə Nazirliyi B.Ə. Eyvazov adına Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu Leykemogenez laboratoriyası tərəfindən 5 yaşlı Polada kəskin limfoblast leykoz (L2 tipli) diaqnozu qoyulub.

Hazırda vəziyyəti gündən-günə pisləşir. Yüksək hərarət, bədənin müxtəlif yerlərində kəskin ağrılarla müşayiət edilən şişkinliklər meydana gəlib. Xəstəlik kəskin dövründədir. Leykoz xəstəliyinin müalicəsi üçün yüksək məbləğdə pul lazımdır. Rica edirik, balaca Polada laqeyd qalmayasınız! Hər manatın Poladın taleyində əhəmiyyəti var. Onun sağalması sizin əlinizdədir.

"Yeni Müsavat" qəzeti və musavat.com saytı da bu müraciətə qoşulur və imkanlı, xeyirxah, mərhəmətli oxucularımızdan balaca Poladın həyatda qalmasına yardımçı olmağı xahiş eidr.

Yardımı aşağıdakı hesab nömrələrinə köçürə bilərsiniz.

Milli Ön aparatı vasitəsilə:
Hesab nömrəsi:
21-70395345-8 - "AZN valyutası"
21-70395345-7 - "USD valyutası"
21-70395345-6 - "RUB valyutası"
21-70395345-5 - "EUR valyutası"
"DəmirBank" ASC-nin rekvizitləri:
Adı: "DəmirBank" ASC Xətai filialı
Kod: 504313
VÖEN: 9900001471
Müxbir hesab: AZ85NABZ01350100000000011944
S.W.I.F.T BİK: AZERAZ22
Valyuta növü: AZN, USD, RUB, EUR
Hesablaşma hesabı:
İBAN hesab:
AZ63AZER703953450008AZN41010 - "AZN valyutası"
AZ56AZER703953450007USD41020 - "USD valyutası"
AZ15AZER703953450006RUB41020 - "RUB valyutası"
AZ73AZER703953450005EUR41020 - "EUR valyutası"
"DemirBank" Kartdan-Karta xidmətindən də istifadə edə bilərsiniz:
Ad: Babayev Emin Elçin oğlu
Kartın nömrəsi: 4106-6273-8008-5675
Əlaqə nömrəsi: +994507038792 (Babayev Emin)

# Yayın kondisioner dərdi - həm sərinlədir, həm də ziyan vurur...

## Vaqif Qarayev: "Azyaşlı, xüsusən də südəmər uşaqlar olan otaqda qətiyyən kondisioner işlətmək olmaz"

**Yayı kondisionersiz təsəvvür etmək mümkün deyil. Qızmar günəşli havalarda insanların kondisionerlərə olan tələbatı da artır. Ancaq kondisionerdən düzgün istifadə edilmədikdə, o, hətta insanı ölümə qədər apara bilər. Belə ki, kondisioner yuxarı tənəffüs yollarında, ağciyərlərdə bir sıra ağır fəsadlara, hətta sətəlcəmlərə səbəb ola bilər. Eyni zamanda təmizlənməyən, nasaz işləyən kondisionerlər allergik soyuqdəymə, astma kimi xəstəliklər də yarada bilər.**

Alimlər hesab edir ki, kondisioner otaqdakı oksigeni məhv edir. Mütəxəssislər hesab edir ki, kondisionerdən istifadə edərkən onu gündüz 24, gecələr isə 26 dərəcədə qoyulması xəstəlik riskini azaldır. Bundan başqa, kondisionerin zərərli təsirlərini minimuma endirmək üçün onu işlədərkən arabir pəncərəni açaraq otağın havasını dəyişmək lazımdır. Avtomobildə də kondisioner tənəffüs yolları xəstəliklərindən bronxit, sinusit və sətəlcəm, həmçinin göz və beyin iltihabı, badamcıq iltihabı, bəzi əzələ xəstəliklərinə yol aça bilər. Buna görə avtomobildə kondisionerdən istifadə zamanı üz və sinə bölgəsinə sərin havanın birbaşa gəlməsinin qarşısı alınmalı, kondisioner ön şüşəyə doğru yönləndirilməlidir.



**Həkim, pediatr Vaqif Qarayev kondisionerin yalnız soyuqdəymə deyil, eyni zamanda allergik xəstəliklər də yaratdığını dedi:** "Kondisioner işləyən otaqda havada ventilyasiya olmur. Kondisionerin filtrləri həmin otaqda olan toz, mikrob, bir sözlə, xəstəlik törədən nə varsa özünə yığır. Amma ventilyasiya olmadığından müəyyən müddətdən sonra həmin xəstəlik törədiciləri öz yerinə qayıdır. Bu baxımdan, bir çox kondisionerlər sərinlətməklə yanaşı, xəstəlik də törədir. Ona görə hər bir kondisioner modelinin filtrinə qulluq qaydasına əməl edilməlidir. Bəzən illərlə bu filtrlər təmizlənmir. Açıb baxdıqda orada barmaq qalınlığında tozun yığışdığını görərik. Ona görə də kondisioner yalnız soyuqdəymə deyil, eyni zamanda allergik xəstəliklər də yaradır. Allergik problemi olan insanlar kondisionerdən uzaq qaçmalıdır. Saatlarla kondisionerin işləməyi düzgün deyil. Kondisioneri söndürdükdən sonra qapı, pəncərəni açıb otaqda bir ventilyasiya yaratmaq lazımdır. Çünki kondisioner işləyən otaqda oksigenlə yanaşı karbon qazı da yaranır ki, bu da insan orqanizmi üçün ziyanlıdır. Bundan əlavə, kondisioner otaqdakı havanı qurudur. Kondisioneri elə tənzimləmək lazımdır ki, hava daha çox tavana istiqamətlənsin. Çünki birbaşa kondisionerdən gələn sərin havanın altında otursaq, uzansaq mütləq əzələ-oynaq ağrıları yaradacaq, allergik problemləri, yaşlı insanlarda isə xroniki xəstəlikləri kəskinləşdirəcək. Bu problemləri olmayanlar da soyuq hava şırnağının altında saatlarla otursa, mütləq boyun və kürək nahiyəsində ağrılar olacaq. Kondisionerin altında yatmaq qətiyyən olmaz. Çünki yuxu zamanı orqanizmin fəaliyyəti zəifləyir, müqaviməti aşağı düşür. Kondisioner olan otaqda çılpaq gəzmək olmaz. Yaxşı olar ki, sintetik olmayan təbii parçalardan, xüsusən də boyun və kürək nahiyəsini qapayan paltar geyinmək lazımdır. Bu mütləqdir. Bu soyuq hava ilə dəri arasında bir boşluq yaradır. Yəni soyuğun birbaşa təsirinin qarşısını alır".

**V.Qarayev bildirdi ki, bir yaşadək uşaqlar olan otaqda kondisioner qətiyyən olmaz:** "Böyüklərin orqanizmi yuxarıda sadaladıqlarıma dözür, amma uşaq orqanizmi dözə bilmir. Kiçik yaşlı, xüsusən də südəmər uşaqlar olan yerdə kondisioner qətiyyən olmaz. Uşaq olan ailələr bunu gərək tənzimləsin. Tutaq ki, axşam saatlarında uşaqları təmiz havaya çıxartmaq lazımdır. Yoxsa "kondisionerim var, qoy uşaq kondisionerin altında oynasın, mən də ev işimlə məşğul olum" demək olmaz. Çünki bu, uşağı mütləq xəstələndirəcək. Yay aylarında təmiz havanın uşaq orqanizmi üçün böyük əhəmiyyəti var. Uşağı uzun müddət qapalı məkanlarda, kondisioner altında saxlamaq düzgün deyil. Uşaq, eyni zamanda da böyüklər bayırdan gəlib birbaşa kondisionerin soyutduğu məkana girəndə temperatur fərqinə orqanizm mənfi reaksiya verəcək. Əgər bayırdan gəlmisinizsə, kondisioneri bir müddətlik söndürmək lazımdır. Bədən bir müddət kondisionersiz rejimə öyrəşəndən sonra otağı soyutmaq olar. Yəni temperatur rejimini tənzimləmək lazımdır. 23-28 dərəcədə kondisioner sərin hava verir, soyutmur. İnsan bədəninə təsir etmir. Ancaq təəssüf ki, ictimai yerlərdə buna riayət etmir. Buna görə də hazırda hamı əzələ tutulması, boyun, baş ağrılarından, burun tutulmasından şikayət edir. Bu hallar kimdə varsa, deməli ki, o, kondisionerdən düzgün istifadə etmir".

❑ **Günel MANAFLI**




# Bu yay dənizdə boğulanlarla bağlı şok: iki qardaş, azyaşlılar, model, polis...

**Ölkəmizdə ilin yay mövsümü həm də dənizdə boğulanların ölümü ilə yadda qalır. Ötən illərdə olduğu kimi, bu il də təəssüf ki, dənizdə boğularaq dünyasını dəyişənlərin sayı az deyil. Ölənlər arasında xüsusilə azyaşlı uşaqların olması, ailələrin bir gündə iki övladını itirməsi ictimaiyyət üçün daha ağrılı oldu.**

Musavat.com qafqazinfo-ya istinadən iki ay ərzində dənizdə boğulanların statistikanı təqdim edir. Qeyd edək ki, statistika Fövqəladə Hallar Nazirliyinin yaydığı məlumatlar əsasında hazırlanıb.

Bu arada vurğulayaq ki, iyun ayında dənizdə 3 nəfər boğulub. Onlardan ikisi qardaşdır. Belə ki, 2007-ci il təvəllüdlü Nihad Bayramov və qardaşı 2009-cu il təvəllüdlü Lətif Bayramov çimərkən boğulub.

Həmin ayın sonunda isə fotomodel Günel Mirzəyeva dostları ilə yaxtada dincələn dənizdə batıb.

İyul ayında ötən aya nisbətən ölümlər daha çox olub.

Ayın 1-də Hüseyn Rəhimov və onun dostu Səbinə Abıyeva çimərkən boğulub.

İyulun 2-də Xaçmazda 45 yaşlı naməlum kişinin cəsədi dənizdən tapılıb.

İyulun 3-də isə Mingəçevirdə dincələn iki polisin boğulması xəbəri gündəm oldu. Onlar 1993-cü il təvəllüdlü Qalib Novruzov və 1991-ci il təvəllüdlü Şahlar Mamayevdir.

İyulun 4-ü tarixi 4 nəfərin ölümü ilə yadda qaldı. Onlardan ikisi qardaşdır. Həmin şəxslər 1999-cu il təvəllüdlü Habil Quliyev və 1995-ci il təvəllüdlü Adil Quliyevdir. Füzuli Əhmədovun isə cəmi 12 yaşı var idi. 1971-ci il təvəllüdlü Rövşən Hüseynov da boğulanlar sırasındadır.

İyulun 5-də cəmi bir boğulma hadisəsi qeydə alınıb. Həmin şəxs 1996-cı il təvəllüdlü Orxan Məmmədovdur.

İyulun 8-də Saatlının Nərimankənd sakini Allahyarov Gülmusa dünyasını dəyişib.

İyulun 17-də isə ata və oğulun faciəsi baş verib. Hacıqabul sakinləri - ata Bəxtiyar Ağavəlizadə və oğlu Fərid Qəhrəmanov çimərkən boğulublar.

İyulun 20-də Sabirabad sakini Nizam Şirəliyev vəfat edib.

İyulun 24-də daha iki azyaşlı qardaş faciəli şəkildə ölüb. Onlar 12 yaşlı Zahid Əliyev və 9 yaşlı Amil Əliyevdir.

Bu ayın son boğulma xəbəri isə iyulun 25-də baş verib. Həmin şəxs 2000-ci il təvəllüdlü İdris İsmayılovdur.

❑ **Musavat.com**



# Biləsuvarda dəhşət: 9 yaşlı oğlan 7 yaşlı qızı güllələdi

**Biləsuvarda qətl hadisəsi baş verib. APA-nın cənub bürosunun verdiyi məlumata görə, rayonun Günəşli kəndində 2010-cu il təvəllüdlü Qasımova Səbinə Elşən qızı qohumu tərəfindən güllələnərək öldürülüb.**

Hadisəni törədən şəxs S. Qasımovanın qohumu, 2008-ci il təvəllüdlü Bəxtiyar Rafiq oğlu Gözəlovdur. Hadisənin ehtiyatsızlıqdan baş verdiyi bildirilir. Ov tüfəngi ilə ehtiyatsız davranan 9 yaşlı R. Gözəlov S. Qasımovaya atəş açaraq öldürüb. Hadisə yerində Biləsuvar Rayon Prokurorluğunun əməkdaşları çalışır.




# «Bakcell»dən Cocuq Mərcanlı sakinləri üçün xüsusi tarif: bir il pulsuz danışıq

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti işğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə köçürülən ilk sakinlər üçün xüsusi tarif hazırlayıb.**

**Ötən həftə Cocuq Mərcanlıya səfər edən «Bakcell» əməkdaşları 18 yaşına çatmış hər bir Cocuq Mərcanlı sakininə xüsusi tarifli «Bakcell» nömrəsi təqdim edib. Bu nömrələrin sahibləri bir il ərzində öz aralarında pulsuz, digər «Bakcell» nömrələri ilə isə 3-cü dəqiqədən sonra pulsuz danışacaqlar.**



**Doğma torpaqlara dərin bağlılıq nümayiş etdirməklə insanların vətənpərvərlik hisslərinin yüksəldilməsində göstərdiyi şəxsi nümunəyə görə Azərbaycan Prezidentinin I dərəcəli "Əmək ordeni" ilə təltif olunan Cocuq Mərcanlı kənd sakini Oqtay Həziyev də «Bakcell» tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırılıb.**

**Xatırladaq ki, bu ilin may ayında «Bakcell» şirkəti işğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası tədbirlərinə qoşularaq burada mobil rabitə şəbəkəsini təkmilləşdirib. Bu təkmilləşdirmə işləri çərçivəsində ilkin mərhələdə Cocuq Mərcanlıda insanların kəsintisiz mobil rabitə xidməti ilə təmin olunması üçün ərazidə yeni baza stansiyası qurulub. Daha sonra isə Cocuq Mərcanlının yüksəksürətli mobil internetlə təmin olunması üçün «Bakcell» burada 3G şəbəkəsinin təkmilləşdirilməsi üzrə işləri uğurla tamamlayıb.**



**«Bakcell», bundan sonra da Azərbaycan Respublikasının bütün ərazisində üstün müştəri təcrübəsi təmin etmək üçün səylərini davam etdirəcək.**

***

**«Bakcell» haqqında**

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. «Bakcell», Sür@ ticarət nişanı adı altında öz abunəçilərinə ən mükəmməl 3G və 4G mobil internet xidməti göstərir.**

**5300-dən artıq baza stansiyası sayəsində «Bakcell» şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93% -ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. İnnovasiyalar sahəsində lider olan «Bakcell» şirkəti öz Sür@ xidməti və yeni əməkdaşlıqlar vasitəsilə Azərbaycan xalqını ən yüksək səviyyəli mobil internet xidmətləri ilə təmin edir. «Bakcell»in 3G xidməti Azərbaycanın bütün regionlarında mövcud olmaqla əhalinin 93%-ni əhatə edir.**

**«Bakcell» və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.Bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.Bakcell.com/az/news (və ya İngilis dili üçün www.Bakcell.com/en/news) səhifəsinə daxil olun.**

**Qeyri-«Bakcell» abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə «Bakcell»in xidmətləri haqqında məlumat əldə edə bilərlər.**

# Şamaxı İcra Hakimiyyəti vətəndaşın hasarını sökdürüb

## İcra başçısının birinci müavini Qasım Qasımov "Yeni Müsavat"a nə dedi?

**Şamaxı Rayon İcra Hakimiyyəti məmurlarından "Yeni Müsavat"a şikayət edilib. Şamaxı sakini Əli Müseyib oğlu Quliyev iyulun 28-də redaksiyamıza zəng edərək bildirib ki, rayonun Çuxuryurd kəndi ərazisindəki şəxsi torpaq sahəsinə çəkməyə başladığı daş hasarı rayon icra hakimiyyətinin memarı və işçiləri söküblər.**

"Çuxuryurddakı mənə məxsus 29 sot torpaq sahəsinin bütün sənədləri var. İcra hakimiyyətindən çıxarış sənədi də var. Xeyli vaxt idi torpaq sahəm hasarsız idi. Buna görə də heyvan-qaranın tapdağına çevrilirdi. Çətinliklə bir az pul toplayıb daş, sement aldım ki, heç olmasa 1 metr hündürlükdə hasar hördürüm, mal-qaranın qarşısını ala biləк. Yarım metrə yaxın hasar hörülmüşdü. İyulun 27-də rayon icra hakimiyyətinin memarı, bir neçə işçiləri və Məlhəm kəndinin icra nümayəndəsi gəldilər əraziyə. Mənə dedilər ki, hasar sökülməlidir. Mən torpağın sənədlərlə mənə məxsus olduğunu, qanunsuz iş görmədiyimi dedim. Ümumiyyətlə, orada hansısa hasar tikintisi həyata keçirirsənsə, icra hakimiyyətinə 1000 manat pul verməlisən. Sanki yazılmamış qanundur bu 1000 manatın verilməsi. Mən dedim ki, imkanım yoxdur pul verməyə. Söhbət bu vəziyyətdə qaldı. Mən ərazidən gedəndən az sonra həmin adamlar özləri ilə ekskavator da gətiriblər və hasarı sökdürüblər. Həmin şəxslər Şamaxı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qasım Qasımovun tapşırığını yerinə yetirdiklərini danışırdılar. Söküntü zamanı da yaxınlıqdakı qonşulara belə deyiblər", - deyə o qeyd edib.




**Şikayətdə deyilənlərlə bağlı Qasım Qasımovla əlaqə saxladıq. Qasım Qasımov "Yeni Müsavat"a bildirdi ki, belə bir söküntü hadisəsindən məlumatsızdır:** "Mən Çuxuryurdda Əli Quliyev adlı şəxsin hasarının sökülməsi barədə məlumata malik deyiləm. Belə bir göstərişi də verməmişəm. Mənim adımın çəkilməsi və guya mənim adımdan kiminsə pul istəməsi isə yalandır".

**❑ E.SEYİDAĞA**

# Supermarket rəhbərliyi "oğrunu" 4 saat soyuducuda saxladı

**Paytaxtın Xətai rayonu ərazisində fəaliyyət göstərən "Fresh" marketin rəhbərliyi mağazadan oğurluq edən şəxsi özü cəzalandırıb.**



Ölkə.az xəbər verir ki, təqribən 10 gün öncə Novruz Sədiyev adlı şəxs tanışı Firuz Qəhrəmanovla bir yerdə adıçəkilən marketdən 3 ədəd bahalı təraş ülgücü oğurlayarkən market işçiləri tərəfindən saxlanılıb. Bu zaman oğurluq edən Novruz Sədiyev pul gətirmək üçün evə yollanıb. Yanındakı Firuz Qəhrəmanov isə market rəhbərliyi tərəfindən girov saxlanılıb.

Market rəhbərliyi Firuz Qəhrəmanovu özü cəzalandırmağa qərar verib. Onu saat 18:00-dan saat 23:00-a qədər marketdə saxlayaraq, döydürüb. Daha sonra isə Firuz Qəhrəmanov marketin toyuq əti saxlanılan soyuducusuna salınıb.

**Firuz Qəhrəmanov hadisənin doğruluğunu təsdiqləyib. O, market rəhbərliyi tərəfindən döyüldüyünü və zorakılığa məruz qaldığını bildirib:** "Mən marketdən oğurluq etməmişəm. Oğurluğu edən yanımdakı Novruz Sədiyev olub. Kamera görüntülərinə də baxsanız, görərsiniz ki, mən oğurluq etməmişəm. Biz saat 18:00-da marketə girmişik. Çıxanda bizi saxlayıb dedilər ki, siz bahalı təraş ülgücü götürmüsünüz. Onun pulunu da ödəyin. Bizdən 750 manat pul istədilər. Biz də dedik ki, 3 ədəd təraş ülgücünün qiyməti niyə 750 manat edir? Bundan sonra məni girov saxladılar, Novruz Sədiyev isə pul götürmək üçün sərbəst buraxıldı. Saat 23:00 olmuşdu, amma Novruz hələ də pulu gətirə bilməmişdi. Market işçiləri də məni təhqir etməyə, döyməyə başladılar. Hətta məni bir neçə saat toyuq əti üçün nəzərdə tutulan soyuducunun içərisində saxladılar. Təsəvvür edin ki, soyuducunu tam gücü ilə işlədirdilər, mən də onun içərisində qaranlıqda az qala donub öləcəkdim".

**F.Qəhrəmanov məruz qaldığı zorakılığa görə polisə də məlumat verdiyini söyləyib:** "Zorakılığa məruz qalmağımla bağlı Xətai rayon polisinə market rəhbərliyindən şikayət etmişəm. Çünki marketdə mənim döyülməyim barədə bütün göstərişlərə bir qadın rəhbərlik edirdi. Həmin qadın məni nalayiq söyüşlərlə təhqir edir, döydürürdü, əlimi iplə bağlayıb zor tətbiq edirdilər. Soyuducuya salmışdılar, orada "102"yə zəng etmək istədim, telefon tutmurdu. Bunu biləndən sonra market işçiləri telefonumu da əlimdən aldılar".

# Neftçalada oğul analığını öldürüb



**Neftçala rayonunda qətl hadisəsi baş verib. APA-nın Mil-Muğan bürosunun xəbərinə görə, hadisə rayonun Xolqarabucaq kəndində qeydə alınıb. Kənd sakini, 1981-ci il təvəllüdlü Səfərov Əlibala Bayramağa oğlu analığı, 1971-ci il təvəllüdlü Mərdiyeva Bahar Mirzəağa qızını bıçaqla qətlə yetirib.**

YENİ MÜSAVAT
N 158 (6772) 29 iyul 2017

**"Şerif"in "çərt qoz" olduğu barədə ötən həftə yazdığım qeydlərin doğrulmasına məyus oldum. Stajlı futbol azarkeşləri bu cür təhlükələri başı ancaq quru statistik məlumatlardan şişmiş bəzi idman yazarlarından daha yaxşı analiz edə bilirlər.**





# İki "Q": Qurban və Qriqorçuk...

## "Qarabağ" və "Qəbələ"nin qələbə şanslar haqda

SSRİ çempionatında Moldovanın əsasən aşağı divizionlarda oynayan "Nistru"(indiki adı "Zimbru") klubu vardı, zəif və quru bir futbol oynayardılar. Arada yüksək liqaya da vəsiqə qazanırdılar (deyəsən, 1983-cü ildə). Amma "zəllə"likləri də vardı, bir də görürdün bir yaxşı klubdan xal oğurladılar, bir "durnoy" top vurub hətta qələbə qazandılar. "Şerif" "Nistru" deyil, amma "zəllə" klubdur və təəssüf ki, qarşımıza çıxdılar və Bakıdan çox mühüm bir xal apardılar.

***

"Qarabağ"la oyunda stadiona gedən minlərlə azarkeşə təşəkkür düşür, klubu necə lazımdır dəstəklədilər. Sanki "Qarabağ" super bir klubla oynayırmış kimi stadiona axın etdilər ki, burda bizim yazılardakı "ay-haray"ın da rolu yəqin ki, var.

"Qarabağ" pis oynamadı. "Qarabağ"ın, ümumiyyətlə, heç vaxt təslim olmaması bu klubda ən qiymətləndirdiyim keyfiyyətdir. Oyun zəif alına bilər, oyunçular yorula bilərlər, bir-birlərinə qəzəblənə bilərlər, amma təslim olmaq söhbəti yoxdur. "Qarabağ" "Şerif"lə oyunda bizim arzuladığımız kimi oynaya bilmədi, daha dəqiqi, rəqib imkan vermədi. Yazmışdıq ki, klub italiyalının oyun sxemi ilə işlədiyi üçün müdafiə futbolu oynayacaq. "Şerif" isə ikinci hissədə lap "qala qurdu". Bu, İtaliya futbol məktəbinin ən güclü tərəfidir və "Şerif" müdafiədə (xüsusilə cinahlarda) bu gücünün sayəsində xal qazandı. Bu cür müdafiəni yarmaq "Qarabağ"a çətin oldu: çünki klubun üzərində həm də azarkeşin psixoloji basqısı vardı, tez-tez səhvlər olurdu, top qapı istiqamətinə necə gəldi vurulurdu ki, təki qol olsun. Qol da ola bilərdi, həm birinci hissənin ilk dəqiqələrində, həm ikinci hissənin sonlarına yaxın 2-3 təhlükəli vəziyyət oldu ki, top qapıya getmədi.

***










"Qarabağ" - sanki xəbərimiz yoxdur, ya da görməzdikdən gəlirik - yenilənmiş klubdur. Qurban Qurbanovun sayəsində xüsusilə hücum xəttində yaranmış boşluqlar qismən görünmür, amma gedənlərin də, zədəli olan Kintanın da yeri görünür axı... Mən sosial şəbəkədə yoxam, amma Aqil Abbasın qol.az saytındakı yazısından belə anladım ki, kluba iradlar çoxdur. Bunları dərd eləmək lazım deyil, məncə, qərəz yoxsa, qoy tənqid bol olsun. "Qarabağ" sıradan bir klub deyil, bu Azərbaycanın həm fəxri, həm gözünü dikdiyi, həm ürəyini verdiyi klubdur. "Qarabağ" həm də siyasətdir, bunu inkar etmək olmaz. Adam hərdən "gözüm çıxsın, filan işi niyə görmədim" də deyir. "Qarabağ"ın "Şerif"lə oyuna görə "gözünü çıxaranları" bu mənada başa düşmək olar. "Qarabağ" klubu bir toplumun inhisarında da deyil, ona görə tənqidlərin qabağına sanki tankın qarşısına çıxırmış kimi sinə verməyə gərək yox. Klub udacaq da, uduzacaq da, amma şöğərib Çempionlar Liqasına düşmək şansı da varsa, inciyən də çox olacaq, klub rəhbərliyini, oyunçuları tənqid edən də...

***

Amma rəqib də rəqibdir. Bəzi yerli mütəxəssislər deyib ki, "Şerif"də təriflənəsi oyun görməyiblər. Guya son Avropa çempionu Portuqaliya da Ronaldodan başqa təriflənəsi nəsə varmı? Amma komanda qrupda üç heç-heçə edib, növbəti mərhələ də penallaşma sayəsində finala gəldi. "Şerif" əlbəttə ki, "Qarabağ"ın indiyədək oynadığı bir çox rəqibdən çox zəif görünə bilər, amma nəticə əsasdır. "Şerif" "sürünə-sürə" ÇL qrup mərhələsinə düşə də bilər. Bunu "Qarabağ"ın oyunçuları, rəhbərlik də gördü. "Qarabağ"ın zəif yerlərini Qurban Qurbanovdan yaxşı kimsə görə bilməz. Eləcə də rəqibin. "Qarabağ"ın hücumlarında kəsər azalıb, bunun da səbəbləri məlumdur.

Müdafiədə kapitan Rəşad Sadıqovun olmaması özünü dərhal göstərir. Klub 34 yaşlı müdafiəçiyə əvəz tapmaqda da bir az gecikir. Yaş öz işini görür, üstəlik də gözlənilməyən zədələri hər zaman gözə almaq lazım. Amma inanaq ki, Tiraspolda bizi nə qədər çətin oyun gözləsə də, növbəti mərhələyə çıxan biz olacağıq. Avqustun 2-nə neçə gün qaldı ki...

### "Qəbələ" qələbəyə çox yaxındır

Avropa Liqasının üçüncü təsnifat mərhələsində Afinada "Panatinaikos"la qarşılaşan "Qəbələ"nin 1:0-lıq məğlubiyyətə baxmayaraq, mərhələ adlamaq üçün yaxşı şansı var. "Qəbələ" də əzmkar klubdur, Qurbanın əli topa dəyməsəydi bu oyunun heç-heçə bitməsi ən ədalətli nəticə olaradı. Düzdür, bir-iki epizodda bəxtimiz də gətirdi. Amma bu hesablı qalibiyyət yunanları çətin ki, rahatlatsın. "Qəbələ"nin xətlər arasında əlaqə qurmaqda problemləri var, yeni oyunçuların komanda yoldaşları ilə "dil tapması" üçün zaman lazım olacaq, hətta illərdi bu klubda oynayanlar belə bəzi ötürmələrdə elə səhvlər yol verdilər ki, baş məşqçisi Roman Qriqorçuk məəttəl qaldı. Bu səbəbdən də matçdan sonrakı mətbuat konfransında baş məşqçi "oyun tərzi baxımından komandam tanınmaz idi" deyib. Qriqorçuk komandasından narazı qalmaqda haqlı ola bilər, amma biz rəqibin "Panatinaikos" olduğunu unutmayaq. Məğlubiyyətə baxmayaraq, Qriqorçuk vurğulayıb ki, komandası Bakıda lazımi nəticəni qazana bilər: "Cavab oyununda vəziyyəti dəyişə bilərik. Buna inanıram. Daha düzgün oynamağa gücümüz çatır. Mərhələ adlamaq şansımız var və bu, az deyil. Cavab matçında növbəti mərhələyə vəsiqənin taleyini xeyrimizə həll edə bilərik. Bakıda tam fərqli oyun göstərəcəyik".

İnşallah, böyük ümidlər var ki, Avropada təmsilçimiz olan iki "Q" elə Qurban və Qriqorçukun ağıllı məsləhətləri sayəsində növbəti həftə bizi sevindirəcəklər...

❑ **Nazim SABİROĞLU**








YENİ MÜSAVAT

Son səhifə

N 158 (6772) 29 iyul 2017



## Köpək balıqlarını hipnoz edirlər, çünki...

**Atlantik okeanındakı Baham adalarında dalğıclıqla məşğul olan Gragam Gibson köpək balıqlarını ovucunun içində yatızdırmağı bacarır. G.Gibson məşhur jurnalistlərlə birlikdə dənizin dibinə enib və köpək balıqlarını hipnoz edib. O, əvvəlcə təhlükəli balıqların yanına yaxınlaşıb, əli ilə onların burunlarını ovuşdurub. Daha sonra isə balıqlar başlarını onun ovucunun içinə qoyaraq yatıblar. Köpək balıqlarının bu görüntüsü hər kəsi şoka salıb.**

Köpək balıqları haqqında çəkilmiş bu videonu izləyən mütəxəssislər isə onları burunlarını ovuşduraraq hipnoz etməyin mümkün olduğunu deyiblər. Məlumatlara görə, bu balıqlar hipnoz edildikdən sonra 15 dəqiqə ərzində yatırlar, daha sonra isə heç nə olmamış kimi oyanırlar.



## Qulaqcıqdan çox istifadə edənlər... kar ola bilər

**Müntəzəm qulaqcıqdan istifadə edən musiqisevərlərin sağlamlığı risk altındadır. Daimi qulaqcıqlardan istifadə etmək gələcək nəslin kütləvi karlıqdan əziyyət çəkməsinə səbəb ola bilər. Hər qulağın ölçüsünə uyğun qulaqcıq olmalıdır. Əgər qulaqcıq qulağa uyğun deyilsə, kiçik və ya böyükdürsə, qulağı mexaniki olaraq incidir.**

Gənclərin müntəzəm istifadə etdiyi qulaqcıqlar zamanla alışqanlıq halına gəlir və insanlar vacib əşya imiş kimi qulaqcıqsız evdən kənara belə çıxmırlar. Bu da zamanla qulaqda zəif eşitməyə, karlaşmaya gətirib çıxarır. Həkimlər bildirir ki, yüksək səslə nəyisə dinləmək qulaqları hədsiz zədələyir. Elə qulaqcıqlar var ki, qulaq kanalının içinə salınır. Belə qulaqcıqlara insanlar daha çox üstünlük verir. Qulaq pərdəsinə nə qədər yaxından səs verilərsə, qulaqların zədə alması ehtimalı daha çoxdur. Qulaqcıqlar həm mexaniki narahatçılıq, həm də sağlamlıq baxımından ziyanlıdır, odur ki, istifadə olunmaması məsləhət görülür.

# Dələ şəhəri bir neçə saat işıqsız qoydu

**Kaliforniyanın San-Dieqo şəhərində 45 min nəfər eyni anda işıqsız qalıb. Buna səbəb dələ olub. Baş vermiş hadisə ilə bağlı yerli "San Diego Gas and Electric" kampaniyası xəbər verib. Kampaniyanın nümayəndəsi Helen Qao bildirib ki, elektrik bütün binalarda söndürülüb.**

Xəbərdə qeyd olunub ki, qəzaya elektrikötürücü stansiyada yerləşən dələ səbəb olub. Dələnin elektrik ötürücülərinə toxunması ucbatından qısa qapanma baş verib və nəticədə bir neçə saat şəhər işıqsız qalıb.



# Ayrılan qadınların səhvləri bunlardır

**Ayrılıqlar hər zaman çətindir. Amma ayrılarkən dəqiq sərhədlər və riayət edilməsi lazım olan qaydalar var. Kişilər qəbul etmir, amma onların da hissləri var. Əgər onlar düzgün bir şəkildə sizin getməyinizə icazə verirsə, sizdən də eyni şeyi gözləyirlər.**

1. Ayrılan ya da üzülən olsanız, bunları etmədiyinizdən əmin olun.
2. Onu utandırmaq üçün şayiə yaymaq.
3. Ən yaxın dostu ilə birlikdə olmayın.
4. Sosial mediada terror etmək.
5. Onu daha da çox sıxmaq.
6. Üzr istəməyə çalışanda kobudluq etmək.
7. Günahlandıran olmaq.
8. Ayrılıqların da bəzən münasibətlər üçün şərt olduğunu qəbul etməmək.



## Çox işləyən insan alkoqolik ola bilər

**Alimlərin beynəlxalq araşdırma qrupu alkoqol istifadəsi və iş saatının uzunluğu arasında əlaqəni müəyyən etmək üçün tarixin ən böyük araşdırmasını aparıb. Problem üzrə 61 tədqiqatda 14 ölkədən 330 min nəfər iştirak edib. Tədqiqatlar normadan çox işləyən adamların alkoqola daha meylli olduğu faktını ortaya çıxarıb. Çünki əlavə iş insanda depressiya, stress, yuxu ilə bağlı problem yaradır. Alkoqol isə belə mənfi effektlərdən uzaqlaşmağın vasitəsi kimi görülür.**

Avropa Birliyində standart iş müddəti həftədə 40 saatdır. Əgər işçinin norması 48 saata çatırsa, bu içilən spirtli içkilərin miqdarını 11% artırır. 49 saatdan yuxarı 13% artım müşahidə olunur. Depressiya və yorğunluq nəticəsində yaranan içki içmək istəyi kişilər üçün daha xarakterikdir, nəinki qadınlar. Araşdırma göstərir ki, bu, coğrafiyadan, insanların iqtisadi, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eynidir.




**QOÇ** - Mühüm bir işinizi reallaşdırmaq üçün köməyə böyük ehtiyacınız var. Amma əbəs yerə narahat olmağa dəyməz. Çünki nahardan sonra bu köməyi hiss edəcəksiniz. Odur ki, aktivliyinizi artırın.

**BUĞA** - Şəxsi işlərinizdə əsaslı dönüş gözlənilir. Bütün imkanlarınızı da məhz bu istiqamətə yönəltməlisiniz. Nüfuzlu və təcrübəli insanlarla görüşməyiniz sizə səmərə verə bilər.

**ƏKİZLƏR** - Təxminən saat 12-yə qədər gərgin əhval-ruhiyyədə olacaqsınız. Amma çalışın ki, bu enerjini başqasına ötürməyəsiniz. Axşam saatlarında isə ikili gəzintilərə çıxmaq olar.

**XƏRÇƏNG** - Əsas diqqətinizi ailə-sevgi məsələlərinə yönəldin. Elə addım atın ki, ünsiyyətdə olduğunuz adamların rəğbətini qazanasınız. Hər deyilən sözə və atmacalara əhəmiyyət verməyin.

**ŞİR** - "Ağac bar gətirdikcə başını aşağı salır". Çalışın siz də bu prinsipə əməl edəsiniz. Əmin olun ki, belə etsəniz, Göy qübbəsi sizə dayaq olacaq. Hətta şəxsi büdcənizi də artıra bilərsiniz.

**QIZ** - Ulduzların düzümü xoş bir gün yaşayacağınızdan xəbər verir. Maraqlı insanlarla görüşləriniz, eləcə də perspektivli təkliflər alacağınız gözlənilir. İnsanlara şübhə ilə yanaşmayın.

**TƏRƏZİ** - Mənfi enerjili Ay bürcünüzdə qərar tutduğundan bəzi işləri təxirə salmalısınız. Hər hansı risk və ya qeyri-ənənəvi addım sizə zərər yetirə bilər. Tanrını başınız üstündə hiss edin.

**ƏQRƏB** - Ümumən gərgin təqvim olsa da, şəxsi büdcənizi artırmaq üçün geniş imkanlar qazanacaqsınız. Məhz bu amili nəzərə alıb pulla bağlı işlərinizi önə çəkin. Səhhətinizi də qoruyun.

**OXATAN** - Qərarlarınızda qətiyyətli olsanız, bu təqvim sizə xoş ovqat bəxş edəcək. Şəxsi işlərinizdə isə nəzərəçarpacaq irəliləyişlər labüddür. Bütün addımları ilk olaraq özünüz atın.

**OĞLAQ** - Əməkdaşlıq zəminində uğurlarınız mümkündür. Amma gərək hər bir işi qanun çərçivəsində həll edəsiniz. Axı siz məmur və ya iqtidar yetkilisi deyilsiniz. Bəxtinizdə pul da var.

**SUTÖKƏN** - Böyük uğurlar astanasında olduğunuzu nəzərə alan Göy qübbəsi sizə yardımçı olacaq. Bunun üçün gərək özünüz də əzmkar olasınız. Günün ikinci yarısında məntiqə uyğun risk etməyə dəyər.

**BALIQLAR** - Ümumi məziyyətlərinə görə bir qədər gərgin gündür. Ələlxüsus da saat 11-14 arası əsəbləriniz tarıma çəkilə bilər. Ən düşərli məqamları isə yalnız məhəbbətdə yaşayacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Plastik cərrahlar Corc Klunini ən yaraşıqlı kişi sayır




**Londondakı plastik cərrahiyyə mərkəzi amerikalı aktyor Corc Klunini dünyanın ən cazibədar kişisi hesab edir. Bu nəticəyə əsasən, 56 yaşlı aktyorun üz cizgiləri 91.86 faiz formulanın proporsiyalarına uyğun gəlir. Mərkəzdən bildiriblər ki, ümumiyyətlə, Corc Kluni illərdir dünyanın ən yaraşıqlı kişilərindən biri sayılıb. Amma bu metodikaya görə, indi də aktyor ideal cizgilərin sahibi hesab edilir.**

Qızıl proporsiya anlayışı hələ 2300 il əvvəldən məlumdur. Qeyd olunur ki, insanın üz cizgiləri bu qızıl proporsiyaya nə qədər uyğundursa, bir o qədər cazibədar sayılır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100